www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 mart 2015-ci il Bazar ertəsi № 58 (6086) Qiyməti 40 qəpik

**Xəbər**

## Salyanda traktor kanala düşdü - 8 yaşlı uşaq öldü...

yazısı səh.14-də

**Gündəm**

### Milli Şura Bakıda mitinq keçirdi



"Zülmə boyun əymək olmaz, mübarizə aparmaq lazımdır..."

yazısı səh.6-da

### Bayram gəldi, vağzallarda bilet yenə qəhətə çıxdı - əməkdaşımızın qeydləri

yazısı səh.12-də

### Novruz yarmarkalarında qiymətlər əl yandırır, alıcılar narazıdır...

yazısı səh.3-də

### "Azadlıq" radiosu ilə bağlı başlanan Bakı danışıqları nə vəd edir?

yazısı səh.5-də

### "Bazarstore" də alıcıları aldadan marketlər sırasına qatıldı

Vitrindəki qiymətlərlə kassadakı qiymət arasında ciddi fərq var

yazısı səh.13-də

*Amerikadakı səfirimiz:*

### "Türkiyə və Azərbaycansız regionda hər hansı strateji layihə mümkün deyil..."

yazısı səh.11-də

### Bu həftə əfv gözlənilir

yazısı səh.5-də

### İŞİD-in qara günləri başladı...

yazısı səh.3-də

### Bakı-Sumqayıt yolu bərbad hala düşdü

yazısı səh.13-də

### Online alış-verişin fəsadları və müştərilərə qurulan tələlər - aldanmamaq üçün 10 qızıl məsləhət...

yazısı səh.15-də

### Azərbaycanlı modelyer: "Milli geyimlər bizim son dəyərimizdir..."

yazısı səh.14-də

## Dünyanın gözü müəmmanı çözmək üçün Piterə dikildi

# PUTİN BU GÜN EFİRƏ ÇIXMASA...

Rusiya prezidentinin "yoxa çıxması" ətrafında son 10 gündə davam edən şayiələrə, nəhayət, bu gün aydınlıq gələ bilər; məşhur filosof alim Heydər Camaldan sensasion iddialar: "Putin neytrallaşdırılıb və güc strukturlarının nəzarəti altındadır"; yaxın dostu İlham Rəhimov "peşəkar xokkeyçilərlə saat yarım xokkey oynadı" deyir; Kremldə çevriliş olsa, FTX rəhbəri Bortnikovun şansı varmı?



yazısı səh.9-da

## Gümrü bazası Azərbaycana qarşı "dəmir yumruğa" çevrilir - təhlil

Rusiyanın abxaz dəmiryolunu açmaq israrının müdhiş pərdəarxası; bu yol işə düşsə, Rusiya 24 saat ərzində Ermənistandakı bazasına çoxlu sayda ağır texnika və 100 minlik hərbi kontingent göndərə biləcək...

yazısı səh.8-də



### Şəmkirli iş adamından Aslan Aslanova yeni ittihamlar

yazısı səh.10-da



### ABŞ səfirinin ilk Qarabağ mesajı kimə ünvanlanıb?

yazısı səh.11-də



*İqbal Ağazadə:*

### "Bəlkə hökumət çıxıb üzr istəyəcək..."

yazısı səh.7-də

## YAP-dan mitinq açıqlaması



**"Xaricdən qrant alan insanlar Azərbaycan vətəndaşının rifahından nə danışa bilərlər?" Bunu APA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov Milli Şuranın martın 15-də keçirilən mitinqinə münasibət bildirərkən deyib.**

S. Novruzov mitinqi şou adlandırıb: "Milli Şura mahiyyətsiz, mənasız bir qurumdur. Bugünkü (denənki-red.) mitinq də bir şou, Əli Kərimlinin konsert proqramı idi. Milli Şurada olanlar korrupsiya ilə məşğuldur. Ümumiyyətlə, xaricdən qrant alan, ölkənin əleyhinə iş aparan bu insanlar Azərbaycan vətəndaşının rifahından nə danışa bilərlər?"



## Elnur yenidən Azərbaycanı təmsil edərsə...

**Azərbaycanı builki "Eurovision" Mahnı müsabiqəsində təmsil edəcək ifaçının müəyyənləşdirilməsi üzrə münsiflər heyətinin qapalı seçimi keçirilib. Bu barədə İctimai Televiziyanın rəsmi saytında məlumat yerləşdirilib.**

Xəbərə görə, münsiflər heyəti finala çıxan 3 şəxsin adını açıqlayıb. Onların arasında "O səs Türkiyə" müsabiqəsinin qalibi, Azərbaycanı ilk dəfə "Eurovision"da Samir Cavadzadə ilə birlikdə təmsil edən Elnur Hüseynovun da adı var.

Bəs, Elnur Hüseynov yenidən Azərbaycanı təmsil edərsə, hansı nəticə gözlənə bilər? 2008-ci ildə Elnuru yarışa hazırlayan bəstəkar Gövhər Həsənzadə "Eurovision" müsabiqəsini "siyasi yarış" adlandırdı. Onun sözlərinə görə, müsabiqədə təkcə mahnı və səs rol oynamır, siyasi predmetlər də müsabiqənin taleyini həll edir: "Elnurun yenidən namizədlər arasında olması məni çox sevindirdi. Onun hər bir qalibiyyəti mənim də uğurumdur. 2008-ci ildə Elnuru və Samiri müsabiqəyə hazırlamaq mənim ödəmçiliyimdə idi. Bacardığım qədər bu işin öhdəsindən gəlməyə çalışdım və ilk çıxışımıza baxmayaraq təmsilçilərimiz 132 balla 8-ci oldular. Elnur hazırda Türkiyədədir, onunla mütəmadi olaraq əlaqə saxlamağımıza baxmayaraq, yenidən təmsilçilik haqda söhbətimiz olmayıb. Onun ifası, bacarığı göz qabağındadır. Doğrudur, ifaçıdan çox şey asılıdır, lakin onu müsabiqəyə hazırlayanların da qabiliyyəti əsas rol oynayır. Hazırkı nümayəndə heyəti və digər təmsilçilər barəsində heç bir məlumatım yoxdur".

Qeyd edək ki, İctimai Televiziyanın baş direktoru Cəmil Quliyev və nümayəndə heyətinin başçısı Tamilla Şirinovanın da daxil olduğu münsiflər heyəti Nərminə Behbudova, Nərminə Seyidova və Elnur Hüseynov arasından ölkənin bu ilki təmsilçisini müəyyən ediblər. Lakin nədənsə qapalı seçim ediblər.

Xatırladaq ki, Elnurun Azərbaycanı bu müsabiqədə təmsil edəcəyi ilə bağlı xəbərlər hələ bir neçə ay bundan əvvəl yayılsa da, İTV bu məlumatı inkar edirdi.

❑ Xalidə GƏRAY

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Həbs olunan ilahiyyatçı üçün vəkil tutulub



**Ötən həftə MTN əməkdaşları tərəfindən saxlanılan ilahiyyatçı, "Təkamül" Tərcümə Mərkəzinin direktoru Ceyhun Cəfərov barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. İlahiyyatçının yaxınları "Yeni Müsavat"a bildirib ki, məhkəmə qapalı keçirilib, yaxınlarının prosesdə iştirakına icazə verilməyib.**

Xatırladaq ki, ötən həftə ilahiyyatçının qardaşı Əlipaşa Cəfərov "Yeni Müsavat"a bildirmişdi ki, qardaşı ilə birlikdə bir neçə gün İranda müalicədə olub. Azərbaycana qayıdanda Ceyhun Cəfərova zəng edərək MTN-ə dəvət ediblər. Deyilən vaxtda nazirliyə gedən ilahiyyatçını saxlayıblar. Qardaşı deyir ki, hüquq-mühafizə orqanlarının təyin etdiyi vəkildən aldıqları məlumata görə, ilahiyyatçıya qarşı dövlətə xəyanət maddəsi (CM 274-ci maddəsi) ilə ittiham irəli sürülüb. O isə ittihamları rədd edib və günahsız olduğunu bildirib.

Ailəsi Hacı Ceyhunun günahsız olduğunu və bu həbsin anlaşılmazlıq ucbatından baş verdiyini düşünür. Artıq vəkil tutduqlarını və həftənin əvvəlindən vəkilin C.Cəfərovla görüş üçün müraciət edəcəyini qeyd edən qardaşının zaminə buraxılacağına inanır: "Bu işin anlaşılmazlıq olduğuna inanırıq. Bilirik ki, dövlətin təhlükəsizliyi üçün çalışan MTN bizi ümidsiz etməyəcək. Burada nəsə bir anlaşılmazlıq var. İnşallah, bu yaxınlara evə zamin əsasında buraxılar".

Qeyd edək ki, ilahiyyatçı Ceyhun Cəfərov İslam Universitetində dərs deyib, "Space" telekanalında "Gecə söhbətləri" dini verilişində aparıcı olub, onlarla kitabın tərcüməçiliyini, redaktorluğunu edib. Bu nəşriyyat tərəfindən İslam dinində ən mükəmməl Quran təfsirlərindən olan "əl-Mizan" təfsiri tərcümə olunaraq nəşr olunub. Eyni zamanda C.Cəfərov Həcc ziyarəti zamanı QMİ tərəfindən zəvvar qruplarına rəhbərlik edib, ziyarətin təşkili və düzgün yerinə yetirilməsində zəvvarlara yardım edib.

❑ KƏNAN

## İraqda kütləvi məzarlıq tapılıb

**İraq ordusu və peşmərgənin ölkənin şimalında yerləşən türkmənlərin Bəşir qəsəbəsini azad etməsi əməliyyatı zamanı ərazidə kütləvi məzarlıq aşkar edilib. Türkiyənin Anadolu Xəbər Agentliyinin məlumatına görə, kütləvi məzarlıq qəsəbəyə hücum əməliyyatına hazırlıq məqsədi ilə torpaq qazıntısı zamanı aşkarlanıb.**

Agentliyə açıqlama verən əməliyyat qüvvələrinin komandanı, Bədr briqadasının bölgə üzrə nümayəndəsi Yılmaz Nəccar bildirib ki, məzarlıq partladılan yola alternativ olaraq yeni yol açılması zamanı tapılıb. Əvvəlcə bir neçə sümük tapılıb, daha sonra qazıntı işlər genişlənib və məzarlıqdan 16 cəsəd çıxarılıb.

Cəsədlərin üzərindəki geyim və şəxsiyyət vəsiqələri onların bölgədə yaşayan türkmənlər olduğu aydın olub. Sitat: "Edam edilən insanların geyimləri və üstlərindən çıxan şəxsiyyət vəsiqələrində kimlikləri müəyyən olunub. Bunlar keçən il avqust ayında Bəşir qəsəbəsini azad etmək üçün əməliyyat həyata keçirən Duz Xurmatu, Təzə Xurmatu və Bəşir qəsəbələrindən olan türkmənlərin qurduğu könüllü müdafiə birliyinin üzvləridir. O zaman onların həyata keçirdikləri əməliyyat uğursuz olmuşdu və bu adamlar İŞİD-in əlinə keçmişdi. Daha sonra isə onları edam etmişdilər".

Qeyd edək ki, Bəşir qəsəbəsinin azad edilməsi əməliyyatı martın 12-də başlayıb. Hazırda əməliyyatlar davam edir. Qəsəbə hazırda türkmən qüvvələrinin mühasirəsi altındadır.

❑ Kənan

## Rektor deputatlara "qırmızı işıq"

**Ədalət Partiyasının sədri, deputat İlyas İsmayılov dəfələrlə deputat mandatı daşıyan ali məktəb rektorları və digər icra strukturlarında çalışan şəxslərlə bağlı Mərkəzi Seçki Komissiyası (MSK) qarşısında məsələ qaldırıb.**

Partiya sədri Azərbaycan Konstitusiyasənın 85-ci maddəsinə istinad edərək bildirib ki, icra və məhkəmə sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər deputat seçilə bilməzlər. Ancaq hələ ki, deputatın müraciətinə ciddi reaksiya verilməyib.

Hakimiyyətdəki mənbələrdən Modern.az-a verilən məlumata görə qarşıdan gələn parlament seçkilərində rektorlar, icra və məhkəmə sistemlərində qulluq edənlərin deputatlığa namizədliyinin irəli sürməsinin qarşısı alınacaq. Bu barədə hazırkı rektor-deputatlara, dövlət idarələrində vəzifə tutan deputatlara da xəbərdarlıq edilib. Məlumatda deyilir ki, illərdir deputat olan rektorların qəzəbinə səbəb olan açıqlamalar verən İ.İsmayılovun təklifinin reallaşacağı gün uzaqda deyil. Ədalət sədrinin özünün isə növbəti parlament seçkisində iştirak edib-etməyəcəyi hələ ki sual altındadır.

❑ Vüqar MURAD




## Maliyyə Nazirliyinin apardığı yoxlamaların şok nəticəsi

**Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən 2014-cü ildə aparılmış yoxlamalar nəticəsində iri məbləğdə maliyyə vəsaitinin büdcədən gizlədilməsi faktları aşkarlanıb. Bu barədə qurumun yaydığı məlumata görə, araşdırmaların nəticəsi olaraq dövlət büdcəsinə 4 mln. 910,3 min manat məbləğində vəsaitin bərpasını təmin edib.**

"Amerikanın səsi"nin nazirliyə istinadən yaydığı məlumata görə, yoxlama nəticəsində 107,9 min manat məbləğində artıq və əsassız ödənişlər aşkar edilib, bir təşkilat üzrə yoxlama materialları müvafiq tədbirlər görülməsi üçün aidiyyəti üzrə Baş Prokurorluğa göndərilib. Təhsil sistemində yoxlamalar əsasında normadan artıq saxlanılmış 702,5 ştat vahidi ləğv edilib.

Maliyyə qaydalarının pozulmasına yol vermiş 914 nəfər vəzifəli şəxs barəsində inzibati tədbirlər görülüb. Həmin şəxslər 516,6 min manat məbləğində cərimə edilib, vəsaitlər dövlət büdcəsinə köçürülüb. Maliyyə orqanlarının 3 vəzifəli şəxsi tutduqları vəzifədən azad edilib. Ümumilikdə 6 mln. 27,2 min manat məbləğində israfçılıq halları aşkar olunaraq yoxlama materialları müvafiq tədbirlər görülməsi üçün Baş Prokurorluğa göndərilib.

❑ Cavid TURAN



## Məmurun çıxışına sərt təpki

### 21 deputat İran prezidentinə müraciət etdi

**İraqın Xarici İşlər Nazirliyi də bəyanat yayaraq İran rəsmisinin çıxışına kəskin etiraz bildirib.**

İran parlamentinin 21 deputatı martın 14-də ölkə prezidenti Həsən Ruhaniyə məktub yazaraq milli və dini azlıqlar üzrə köməkçisi Əli Yunisini tutduğu vəzifədən azad etməyi tələb edib. GünAz.TV-nin məlumatına görə, Ə.Yunisi martın 8-də Tehranda keçirilən "İran kimliyi" adlı toplantıda çıxış edərək qədim İran imperiyasından danışarkən qəzəb doğuran bəzi fikirlər işlədib.

O deyib ki, bütün Orta Şərq xalqları iranlıdır və onların hazırda yaşadığı ölkələr vaxtilə İran imperatorluğunun tərkib hissəsi olub. Ə.Yunisi həmçinin bütün Orta Şərq, Qafqaz və Orta Asiya ölkələrinin "İran İttifaqı" adlı bir siyasi qurumun ətrafında toplaşaraq birləşməsini tələb edib. Yunisi deyib: "Bu gün İraq bizim tarixi sivilizasiya hövzəmizin bir hissəsi olaraq, həm də bizim kimliyimiz, mədəniyyətimiz və paytaxtımızdır".

Əli Yunisinin bu bəyanatı bölgədəki ərəb ölkələrinin ciddi narahatlığına səbəb olub. İraqın Xarici İşlər Nazirliyi də bəyanat yayaraq Yunisinin bu çıxışına kəskin etiraz bildirib. Onun çıxışı ölkə daxilində də bir sıra rəsmilərin, eləcə də bəzi hökumət qurumlarının etirazı ilə qarşılanıb. 21 deputatın İran prezidentinə yazdığı məktubunda bildirilir ki, Yunisinin bu çıxışı ölkənin beynəlxalq imicinə və milli mənafeyinə zərbə vuraraq bölgədə İrana olan etimada xələl gətirib.

❑ Cavid TURAN

## 14 saylı "zon"da məhkumun qaçışının qarşısı alınıb

**Penitensiar Xidmətin 14 saylı Cəzaçəkmə Müəssisəsində saxlanan məhkumlardan biri oradan qaçmağa cəhd edib. Məhkum Cəzaçəkmə Müəssisəsinin ərazisini gizli yolla tərk etmək üçün anbara girib və orada gizlənib. Yoxlama zamanı müəssisəsində saxlanan məhkumlardan birinin olmadığını öyrənən nəzarətçilər təcili onun axtarışlarına başlayıblar. Məhkum anbarda olan tikinti materiallarının altında aşkar edilib.**

Məsələ ilə bağlı Penitensiar Xidmətlə əlaqə saxladıq. Qurumun mətbuat xidmətindən bildirdilər ki, onlarda belə bir məlumat yoxdur.

❑ E.HÜSEYNOV



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Novruz yarmarkalarında qiymətlər əl yandırır, alıcılar narazıdır...

## Vətəndaşlar kənd təsərrüfatı nazirinin qiymətlərlə bağlı verdiyi vədə əməl etməməsindən narazıdır

**Martın 14-dən etibarən Bakıda Novruz yarmarkaları işə başlayıb. Yarmarkalar bayram günlərində əhalinin kənd təsərrüfatı məhsullarına tələbatını ödəmək və vətəndaşlara nisbətən ucuz qiymətlər təklif etmək məqsədilə təşkil olunub. Kənd təsərrüfatı naziri Heydər Əsədov martın 14-də mətbuata verdiyi açıqlamada bildirib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə qiymətlərdə heç bir artım yoxdur:**









"Heç bir inzibati təsir göstərilməyib. Sadəcə bazarda təklifi artırmaqla, tələbi daha dolğun ödəməklə qiymətlərin aşağı salınmasına nail olmuşuq. Daha doğrusu, qiymətlər avtomatik surətdə dediyimiz qanuna uyğun olaraq formalaşıb. Hesab edirəm ki, əhali heç bir çətinlik çəkmədən bu qiymətlərlə öz bazarlığını edəcək".

Kənd təsərrüfatı yarmarkalarında qiymətləri müşahidə etmək üçün biz də Xətai rayonunda, Ukrayna dairəsi ilə «Həzi Aslanov» metrosuna yaxın ərazidə yerləşən yarmarkaya baş çəkdik. Təəssüf ki, orada müşahidə etdiklərimiz kənd təsərrüfatı nazirliyinin məlumatları ilə üst-üstə düşmədi.

Yarmarkada, demək olar ki, əksər məhsulların, xüsusən də Novruz süfrəsi üçün lazım olan, qərzəkli meyvələrin və quru meyvələrin qiyməti bayramdan əvvəlki dövrlə müqayisədə 50-60 faiz bahadır.

Jurnalist olduğumu bilən kimi başıma toplanan alıcılar bir ağızdan qiymətlərdən şikayətləndilər. Eldar adlı alıcı bahalıq səbəbindən lazım olan ərzaq məhsullarını ala bilmədiyini və mətbuatın da qiymətlərlə bağlı onları aldatdığını bildirdi: "Bizə yalan məlumat verirsiniz. Dünən yazırdılar ki, qoz ləpəsi 10-11 manat olacaq. 16-18 manatdan aşağı normal qoz ləpəsi tapmaq mümkün deyil. Qozun kilosu 5 manatdır. Halbuki, 8-ci kilometr bazarında 3 manata satırlar. Onda yarmarka təşkil etməyin nə mənası var ki? Heç bir qiymət cənab nazirin dediyi kimi deyil. Mən yarmarkaların üçünü gəzmişəm, bu qiymətlər xalqı soymaqdır".

Yarmarkada ilk baxışdan qiymətlərlə tanış olmaq mümkün deyil. Çünki heç bir məhsulun üzərinə qiymət yarlığı vurulmayıb. Satıcılar hər alıcıya istədikləri qiyməti deyirlər. Bizim jurnalist olduğumuzu biləndə qiymətləri daha ucuz təqdim etməyə çalışdılar. Ancaq ətrafdakı alıcıların reaksiyasından bəlli oldu ki, eyni satıcı onlara həmin məhsulları daha baha deyib. Məhsulların üzərində qiymət yarlıqlarının olmamasının səbəbinə gəlincə, satıcılar zarafatla "qiymət kağızlarını külək apardı" deyə bildirdilər. Nail adlı satıcı isə bildirdi ki, qiyməti olduğu kimi yazanda heç kim yaxınlaşmır: "Qiymət vuranda yaxınlaşan olmur. Ancaq indiki halda yaxınlaşıb soruşurlar və birtəhər məhsulu sata bilirik. Narazılığın səbəbi təkcə bahalıq deyil, bir tərəfdən də insanlarda pul yoxdur. İnsanlar az pulla daha çox mal almağa çalışırlar. Ala bilməyəndə isə narazı qalırlar".

Quru meyvə alveri ilə məşğul olan başqa bir satıcı isə, əlindəki məhsulu topdansatış məntəqəsindən baha aldığını dedi: "Buradakı satıcıların çox az qismi öz məhsulunu satır. Əksər məhsullar Sədərəkdəki "Meyvəli"dən gətirilir. Orada qoz ləpəsinin kiloqramını 15 manata almışam, gətirib 16 manata satıram. 15 manata aldığım məhsulu 11 manata necə satım?".

Qeyd edək ki, yarmarkada qoz ləpəsinin qiyməti 11-18 manat arasında, fındıq ləpəsinin kiloqramı 14-16 manat, qozun kiloqramı 4-5 manat, fındıq 6 manat, şabalıd 6 manat, kişmiş 5-8 manat, ərik qurusu 8 manat, iydə-innab kimi meyvələr 3-4 manata satılır.

Meyvələrə gəlincə, ananas 5.5 manat, portağal 3 manat, armud 2.5 manat, banan 2.5 manat, almanın qiyməti isə 50 qəpik-1manat arasında dəyişir.

Tərəvəzlərdən kök 80 qəpik- 1 manat, kələm 60-80 qəpik, kartof 80 qəpik-1manat, soğan 80 qəpik, pomidor 2.60-3 manatdır. Toyuq ətinin kiloqramı 3-4 manat, yumurta 5-7 qəpik, mal əti 6 manat, qoyun əti isə 6.5-7 manatdır.

Satıcılar bizə mal ətini 5.5 manatdan satdıqlarını desələr də, piştaxtanın qarşısında olan alıcılar mal ətini 6 manata aldıqlarını bildirdilər. Bir sözlə, yarmarkada qiymətlərlə bağlı xoas yaşanır. Bayram günlərindən daha qazanclı çıxmaq istəyən satıcılar məhsulların üzərinə qiyməti göstərən yarlıq vurmadıqları üçün yaxınlaşan hər alıcıya istədikləri qiyməti oxuyurlar. Yarmarkada müşahidə apardığımız bir saat ərzində Kənd Təsərrüfatı Nazirliyinin heç bir nümayəndəsinə rast gəlmədik. Satıcılar da yarmarkaya nəzarət olunmadığını təsdiqlədilər. Bundan əlavə, nazirlikdən bildirildiyi kimi yarmarkanın girişində qiymətləri göstərən cədvəl də yox idi.

Alıcılar yarmarkaların simvolik xarakter daşıdığını və qiymətlərə görə, bazarlardan geri qalmadığını bildirdilər: "Səkkizinci kilometr" bazarı buradan dəfələrlə ucuzdur. Bura gələnlərin bir qismi o bazarın satıcılarıdır. Alıcıların çox olmasından istifadə edib qiyməti artırırlar".

Qiymətlər baha olsa da, yarmarkada məhsul bolluğu nəzərə çarpırdı. Satıcılar yarmarkanın hüdudlarından çıxıb bir neçə metr kənarda da piştaxtalar qurublar. Lakin burada bəzi məhsulların satışı ilə bağlı satınar-gigiyenik normalara əməl olunmur. Qurudulmuş balıqlar arabanın üzərində üstü açıq şəkildə satılır. Gediş-gəlişin çox olması, havanın küləkli olaması yerdəki toz-torpağın açıq satılan toyuq əti və balıq məhsullarının üzərinə çökməsinə səbəb olur. Müşahidələrimizdən belə nəticəyə gəldik ki, yarmarkalar güclü nəzarət tələb edir. Bu vəzifənin bir qismi də alıcıların üzərinə düşür. Belə ki, alıcılar hər hansı narazılıqla Kənd Təsərrüfatı Nazirliyinin "16-52" qaynar xəttinə müraciət edə bilərlər.

❑ **Nərgiz LİFTİYEVA**



# İŞİD-in qara günləri başladı

## Tikritin ardınca Mosulun azad edilməsi əməliyyatına da bir şey qalmadı; gələn aya nəzərdə tutulan əməliyyatlara ABŞ və Türkiyə dəstək verəcək...

**İraq ordusu və könüllü birliklərin Səlahəddin əyalətinin azad edilməsi əməliyyatı davam edir. Paytaxt Bağdadın 150 kilometrliyində yerləşən Tikrit şəhərinin mərkəzi olduğu bu əyalət radikal qrupların geniş yayıldığı ərazilərdən hesab olunur. İraq hökumət qüvvələri bu ayın əvvəlində əyalətin azad edilməsi əməliyyatını başladıb.**

Martın əvvəlində Tikrit yaxınlığında yerləşən Samirra şəhərinə gələn baş nazir Heydər əl-İbadi bəyan edib ki, Tikritin və Səlahəddin əyalətinin azad edilməsi ötən ilin yayında İŞİD-in işğal etdiyi İraqın ikinci böyük şəhəri Mosulun azad edilməsi əməliyyatının birinci fazası hesab olunur. Ötən həftəsonu şəhərin tamamilə İraq qüvvələrinin əlinə keçdiyi haqda xəbərlər gəlsə də, bəzi mənbələr şəhərin mərkəzində İŞİD silahlı qrupunun qaldığını və müqavimət göstərdiyini bildirir. Eyni zamanda İraq qüvvələrinin İŞİD yaraqlılarına şəhəri tərk etmək üçün vaxt verdiyi də bildirilir.

Bu arada məlum olub ki, Türkiyədən göndərilən hərbi təlimatçılar Mosulun azad edilməsi əməliyyatında iştirak edəcək sünni tayfa silahlılarına təlim keçəcək. Bu barədə Mosul valisi Esil Nuceyfi Anadolu Agentliyinə açıqlama verib. Eyni zamanda vali bildirib ki, Ankara ilə Bağdad arasında əldə olunan razılaşmaya əsasən, Türkiyə hökuməti Mosulun azad edilməsi əməliyyatı üçün silah göndərəcək: "Türkiyədən gələn hərbi təlimatçılar bir sıra düşərgələrdə bizim döyüşçülərə təlim keçir. Türkiyə bu mövzuda hər gün daha da aktiv rol alır, ancaq Mosul əməliyyatına iştirak edib-etməyəcəyi məlum deyil".

Mosul valisi əməliyyatın nə zaman başlayacağı ilə bağlı dəqiq tarix göstərməsə də, gələn ay (apreldə) başlamasını istisna etməyib. Eyni zamanda qeyd edib ki, bu əməliyyatı xüsusi hazırlanmış və ağır silahlara malik 20 minlik İraq ordusu başladacaq. Onun sözlərinə görə, əməliyyatına şiddətli istilərin olduğu yay aylarına qədər başa çatması planlaşdırılır, çünki həmin vaxt davam edən əməliyyatlar dinc əhalini çətin duruma sala bilər.

Mosul valisi əməliyyatda kürd peşmərgələrinin də iştirak edəcəyini bildirib. E.Nuceyfi Mosul və əyalət ərazisindəki İŞİD qüvvələrinin təxmini sayını da qeyd edib. Onun sözlərinə görə, İŞİD-ə hazırda təxmini hesablamalara görə, Mosulda 5 min, bütövlükdə əyalət ərazisində isə 20 min nəfərə yaxın döyüşçüyə sahibdir. Onun sözlərinə İŞİD eyni zamanda silahlı toplamaqda çətinlik çəkir: "İŞİD artıq keçmişdə olduğu kimi yaraqlı toplaya bilmir. Bu səbəbdən də çətinliklə üz-üzədir. Artıq savaşda itirdiyi əcnəbi terrorçuların yerinə daha çox iraqlı və təcrübəsiz adamları alırlar. Bu səbəbdən də xeyli dərəcədə zəifləyiblər".

Mosul valisi onu da qeyd edib ki, Tikrit və Kərkük əməliyyatları zamanı İŞİD-ə ağır zərbələr vurulub. Bu səbəbdən Mosul əməliyyatı o qədər də çətin olmayacaq. Nuceyfi qruplaşmanın xeyli sayda təcrübəli, əsasən də liderlərini itirdiyini, bir çoxlarının isə bölgədən qaçdığını, bundan başqa, qənimət bölgüsü məsələsində yerli və əcnəbilər arasında toqquşmaların qeydə alındığını bildirib. Son olaraq Telafer qəsəbəsində yerli və əcnəbi İŞİD-çilər arasında qarşıdurma baş verdiyini bildirib.

Türkiyə mətbuatının yazdığına görə, Mosulun azad edilməsi əməliyyatı zamanı ABŞ hərbi hava qüvvələrinin pilotsuz təyyarələri İncirlik hərbi hava bazasından qalxacaq. Mətbuatın yazdığına görə, daha əvvəl Bəsrə körfəzindəki təyyarədaşıyan gəmilərdən qalxaraq İraqın mərzəsindəki İŞİD mövqelərini bombalayan ABŞ aviasiyası Mosul əməliyyatına daha yaxın ərazidən istifadə edəcək.

Bildirilir ki, ötən həftə Ankaraya səfər edən ABŞ Mərkəzi Qüvvələr Komandanlığını (CENTCOM) komandanı Lloyd Ostinin ardınca bu günlərdə prezident Obamanın İŞİD-ə qarşı mübarizə koalisiyasında xüsusi təmsilçisi Con Allen Türkiyəyə gələrək bu mövzularda danışıqlar aparacaq.

Məlumatda qeyd olunur ki, ilk mərhələdə Mosul və ətrafına yaxın olan İncirlikdən iki ədəd "Reaper" pilotsuz təyyarəsi mütəmadi olaraq İŞİD mövqelərini bombalayacaq. Əməliyyat 3 həftə davam edəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT

N 58 (6086) 16 mart 2015



# Dünya bunun üçündürmü?...

**Hüseynbala SƏLİMOV**

**Əslində elə belə də olmalı idi. Desəydilər ki, V.Putin aprel ayında Ermənistana deyil, Türkiyəyə getməyə hazırlaşır, biz bundan bir xeyli təəccüblənərdik. Elə ona görə də bir daha razılaşmalı olursan ki, təsadüfən yalnız timsahlar uçur...**

Yox, bu yazıda Ermənistan-Rusiya münasibətlərini incələməkdən uzağıq. Bir şeyi ki, hətta hakim partiyanın adamları da edə bilir, buna baş qoşmağa dəyməz...

Ermənilərin “məntiq”inin də içində eşələnməyə ehtiyac yoxdur. Bu, elə bir cəngəllikdir ki, onların hətta özləri də bundan baş çıxarmağa çətinlik çəkirlər.

Tutaq ki, bu qondarma “genosid”in 100 illiyi qeyd olundu. İstisna etmirik ki, buna bənzər nəsə olacaq. Təbii ki, olacaq. Ona görə ki, dünyada hələ də geosiyasi maraqlar qalır-ermənilər hamıdan fayda götürməyə çalışdıqları kimi digərləri də onları ən müxtəif məqsədlər üçün istifadə edir...

100 ildən sonra 101-ci il gələcək və heç nə dəyişməyəcək-Q.Matevosyanın dediyi kimi, “dılğır Ermənistan” böyüyərək “dörd dəniz arasında pərvəriş” tapmayacaq və elə “dılğır”lığında da qalacaq...

Bu, mənim dərdim deyil. Çalışıram ki, ruhi aləmimə murdarlıqları yaxın buraxmayım. Mənim deyəcəyim başqadır. Bu il elə alındı ki, qadınlarımıza 8 Martla bağlı xüsusi bir şey yaza bilmədim...

Çox çək-çevir etdim, çox götür-qoy etdim. Amma gördüm ki, söz tapa bilmirəm. Nə deyə bilərdim qadınlarımıza? Durub deməyəcəkdim ki, hörmətli və əziz qadınlarımız, bizi bağışlayın, biz dılğır bir Ermənistanın öhdəsindən gələ bilmədik, onu sizin oğullarınız üçün saxladıq...

Deməyəcəkdim ki, müharibədə güllə, qumbara dolu yeşikləri daşımalı olduğumuz halda indi çiyinlərimizdə sizin oğullarınızın tabutlarını daşıyırıq və bundan utanmırıq da...

Hər dəfə cəbhədən bəd xəbər gələndə yadıma bir rus şairinin şeri düşür. Şairin də, şeirin də adını çoxdan unutmuşam. Amma maraqlı mətni vardı...

Deyir ki, bu, nədir, İlahi, uşaqlar valideynlərdən əvvəl, şagirdlər müəllimlərdən əvvəl, köməkçilər ustalardan əvvəl ölür... Axırda da qayıdır ki, Allah nə etsin, məğər onun özünün oğlu ölmədimi?..

Həqiqətən də təsirli şeirdir. Elə o gün, televiziya iki gün dalbadal iki əsgərin ölüm xəbərini verəndə bu şeir yadıma düşdü...

Yox, mən yenə də Ermənistanı dılğır bir ölkə hesab edirəm. Mənə elə gəlir ki, dünyanın fəlsəfəsi daha dərindir...

Fikirləşirsən, düşünürsən, bu dünya axı nədən ötrüdür? Anaların və ataların sinəsinə övlad dağı çəkmək üçünmü? Tale bunu kimin və nəyin əli ilə edir, bu, o qədər də əhəmiyyətli deyil...

Amma bir şey var ki, öləndə də kişi gülləsindən öləsən. Vuruşanda da kişi millətlə vuruşasan. Dılğır ermənin gülləsindən ölməyəsən. Ermənistan kimi dılğır ölkə ilə vuruşmayasan...

Mərd namərd gülləsindən ölməməlidir. Məni bir şey düşündürür ki, görən, bu qondarma “genosid”in yubileyinə toplaşanlar nə deyəcəklər?..

Görən heç ağıllarına gəlirmi ki, bir gün elə vəziyyət ola bilər ki, həmin bu dılğır ermənilər elə onların da kürəyinə bıçaq saplayar?... İnanın ki, edərlər...

O qədər namərd millətdir ki, onlardan nə desən gözləmək olar... Tarix boyu belə şeyləri çox ediblər...

Nə isə. Deyəsən, əsas xətdən bir qədər uzaqlaşdım. Qərəz, qadınlarımıza bir söz yaza bilmədim...

Həm də kişilərimizi çox qınadım. Nə etmək olar? Bu qınaq mənim özümə də aiddir..

Bir şeir də elə hey yaddaşıma gəlir... Çoxdan oxumuşdum. Onun da adını və müəllifini unutmuşam. Amma deyəsən adı “Kişilər də ağlayır” idi... Bəli, kişi də ağlayır, özü də için-için...

Ona görə daha düzgünü bu olardı ki, etiraf edim ki, biz kişilərin hələ qadınlarımıza deyiləsi sözü yoxdur. İnşallah, müharibəni udarıq və onda nə qədər desən danışarıq...

Onda gurultulu tostlar da deyə bilərik. Gurultulu təbriklər də yaza bilərik və heç kim bizi boğazdanyuxarı sözlərə görə qınamaz...

İndi isə qınaya bilərlər. Həm də haqlı olarlar. Ona görə ki, bizim bəraət üçün deyiləsi sözümüz yoxdur...

Biz yalnız dünyadan gileylənə bilərik. Onu da sakitcə, gizlin-gizlin. Axı kişi ağlayanda da xəlvəti, gizlin-gizlin ağlayır...

Həqiqətən də, görən, bu dünya nə üçündür? Anaların və ataların sinəsinə oğul dağı çəkmək üçünmü?..

**Martın 16-da saat 15:30-da Bakı Ağır Cinayətlər Məhkəməsində həbsdəki müsavatçı gənc Sirac Kərimlinin növbəti məhkəmə prosesi keçiriləcək. Müdafiə tərəfinin vəkili və təqsirləndirilən şəxs son sözünü deyəcək. Hakim Əhməd Quliyevin hökm oxuyacağı gözlənilir.**




# Bu gün Sirac Kərimliyə hökm oxuna bilər

## Bayramqabağı bəzi siyasilərin məhkəməsi olacaq; vəkil İntiqam Əliyevlə görüşüb

Bu barədə musavat.com-a Sirac Kərimlinin vəkili Nemət Kərimli məlumat verdi. Vəkil proses barədə bunları dedi: “Məhkəmədə müdafiə tərəfi çıxış edəcək. Sirac Kərimli son sözünü deyəcək. Bundan sonra hökm oxumaq məhkəmənin səlahiyyətində olacaq. Məhkəmənin sürətlənməsindən hiss edirəm ki, hakim bu prosesdə hökm oxuyacaq”.

Nemət Kərimli hüquqlarını müdafiə etdiyi Müsavat başqanının müavini Fərəc Kərimlinin də martın 18-də keçiriləcək məhkəmə prosesindən danışdı: “Hazırlıq iclası başa çatdı. Proses davam edəcək. Məhkəmə ardıcıllığını təklif edəcəklər. İlk prosesdə açıq şəkildə göründü ki, hakim ilk dəfədir siyasi məhkəmə aparır. Çox çətinlik çəkirdi. İctimaiyyət nümayəndələrinin iştirakı olmadan qapalı proses keçirmək istədi. Biz ona etiraz etdik. Etirazımız qəbul olunmadı. Hakim prosesi davam etdirdi. Lakin etirazın davamlı olduğunu görüb, hakim 5 dəqiqəlik fasilə elan etdi. Bundan sonra iştirakçılar zala buraxıldı”.

Qeyd edək ki, bayramqabağı daha bir siyasi məhkəmə olacaq. Martın 17-də saat 11:00-da Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam



**İntiqam Əliyev**

Əliyevin bir həftə öncə zərərçəkmiş tərəfin törətdiyi məlum hadisələrlə bağlı yarımçıq dayandırılmış prosesi davam edəcək. Müdafiə tərəfi zərərçəkmiş Gülşən Orucova və nümayəndəsi Nemət Heydərovun martın 10-dakı məhkəmədə jurnalistləri və proses iştirakçılarını təhqir etmələri ilə bağlı məhkəmə heyətinə etiraz edəcəklər.

“Baş verənlər İntiqam Əliyevə ağır təsir edib”. Bu barədə “Yeni Müsavat”a açıqlamasında martın 13-də İntiqam Əliyevlə görüşən vəkili Fəxrəddin Mehdiyev bildirib: “Prosesdə məhkəməyə etiraz edəcəyik. Sonra yəqin ki, proses keçən dəfə ifadəsi yarımçıq qalmış zərərçəkmiş Əfsanə Orucovanın ifadələri ilə davam edəcək. Əgər çatdırsalar, şahid ifadələri də olacaq. Bunlarla əlaqədar digər vəsatətlər də ola bilər. Birinci addımımız etiraz vermək olacaq. İntiqam Əliyevlə görüş normal keçdi. Elə bir problem yaşanmadı. Amma İntiqam bəy çox narahat idi. Jurnalistlər və hüquq müdafiəçilərinin təhqir olunması ona ağır təsir edib. Təbii ki, olanlar ondan asılı bir məsələ deyil. O, çox həssas adamdır. İnsanlar prosesdə iştirak etmək istəyirlər. İntiqam bəy məhz bu amilə görə çox narahatdır. Yaşananların provokasiya olması istisna olunmur. Məhkəmənin normal gedişinin pozulması ilə bağlı belə bir hadisənin qəsdən törədilməsi ehtimalı daha yüksəkdir. Araşdırmanın başqa səmtə getməsinə ittiham tərəfi çalışır. Əsas bu ehtimallar gündəmdədir”.

Qeyd edək ki, martın 10-da keçirilən məhkəmədə zərərçəkmiş tərəfdən Gülşən Orucova və vəkili jurnalistləri ağır ifadələrlə təhqir etmişdi.

❑ **Cavanşir ABBASLI**

# “Putinin 24 aprel seçimi bəlli idi...”

**Orxan Qafarlı:** “Rusiya nə qədər Türkiyə və Azərbaycanla yaxınlaşmaya cəhd etsə də, Cənubi Qafqazda strateji olaraq iki əsrdir müttəfiqi ermənilərdir...”

**Rusiya prezidenti Vladimir Putin qondarma “erməni soyqırımı” olaylarının 100 illiyi ilə bağlı İrəvanda keçiriləcək tədbirlərə qatılacaq. Bu barədə rəsmi Kreml məlumat yayıb. Kremlin mətbuat katibi Dmitri Peskov deyib ki, qərar iki ölkə lideri arasında baş tutan telefon danışığı zamanı verilib.**

Qeyd edək ki, ermənilər “soyqırım” kartından dünyada türklərə və Türkiyəyə qarşı istifadə etməyə çalışır. Türkiyə hakimiyyəti isə bu il ermənilərin soyqırımı iddiasına cavab olaraq aprelin 23-24-də Türkiyədə tarixi Çanaqqala savaşının 100 illiyi münasibəti ilə dövlət tədbirləri keçirəcəyini elan edib. Artıq dünyanın bir çox ölkələrinə bununla bağlı dəvət göndərilib, çox sayda ölkələr bu təklifi qəbul edib.

Rusiya prezidentinin seçimini məhz ermənilərdən yana etməsi, son illərdə münasibətləri xeyli dərəcədə yaxşılaşmış Türkiyəyə deyil, İrəvana getməsi istər-istəməz Ankara-Moskva münasibətlərinə diqqət çəkir.

Yeni Türkiyə Strateji Araşdırmalar Mərkəzinin Avrasiya üzrə eksperti Orxan Qafarlı deyir ki, Putinin 24 apreldə Ermənistana gedəcəyi əvvəlcədən bəlli idi. Ekspertin fikrincə, bunun siyasi, strateji səbəbləri ilə yanaşı bir tarixi mənası da var: “Ermənistan və Rusiya xalqı və siyasətçiləri çox gözəl bilir 1915-ci il 24 aprel hadisələrinin baş verməsində birbaşa çar Rusiyasının rolu olub. Yəni o dönəm ermənilərin Vanda üsyanlarının ortaya çıxması, ”Qncak" və “Daşnaqsutyun”un arxasında ruslar dayanırdı. Bunun üçün də bu gün Rusiyadan yüksək səviyyəli rəhbərin qondarma “erməni soyqırımı” tədbirlərinə qatılmaması mümkün deyildi. Digər tərəfdən, Rusiya bu gün nə qədər Türkiyə və Azərbaycanla yaxınlaşmaya cəhd etsə də, Cənubi Qafqazda strateji olaraq iki əsrdir müttəfiqi ermənilərdi. Rusiyanın həm çar Rusiyasından və SSRİ-dən miras aldığı bu münasibətlərə xəyanət etməsi mümkün deyil".

Bəs, Putinin bu addımı son illərdə formalaşan və möhkəmlənməkdə olan Türkiyə-Rusiya münasibətlərində soyuqluğa səbəb ola bilərmi? Qafarlı deyir ki, Rusiya-Türkiyə iqtisadi və enerji mövzusunda yaranmış əməkdaşlığının bu prosesdən zərər çəkməsi mümkün deyil: “Türkiyə-Rusiya münasibətləri taktiki bir yaxınlaşmadır. Bunu belə də açıqlamaq olar: 20-21 əsrlərdə



**Orxan Qafarlı**

ölkələr arasında münasibətlər iki formada qurulur. Strukturlaşmış münasibətlər, hansı ki, bu əlaqələr zamanı iki ölkə arasında hərtərəfli bir-birindən asılılıq var. Hərbi, siyasi və iqtisadi münasibətlər iç-içə keçir. Məsələn, Türkiyə ilə ABŞ arasında olan münasibətlər bu formadadır. Çünki ”soyuq müharibə" zamanı belə bir münasibətlər qurulub. Bu gün Türkiyə ilə ABŞ-ı bir-birinə yaxın tutan strateji əməkdaşlığın davam etməsinə səbəb zamanında formalaşmış əlaqələrdir. Rusiya Türkiyə arasında olan münasibətlərdə hələ də tam bir-birindən asılılıq durumu və strateji əməkdaşlıq mövcud deyil. Bu münasibətlərin strateji və strukturlu olaraq iç-içə keçməsi üçün geniş bir əməkdaşlıq spektrinin olması lazımdır. Burda hərbi, siyasi və iqtisadi münasibətlərdən söhbət gedir. Doğrudur, bu gün enerji sahəsində və nüvə enerjisi istehsalı sahəsində belə bir əməkdaşlığın meydana çıxması gözlənilir. Lakin bir daha qeyd etmək lazımdır ki, indiki halda Türkiyənin yalnız Rusiyadan aldığı enerjiyə və ticarətə ehtiyacı var. Bu nöqtədə qeyd etmək lazımdır ki, qarşılıqlı olaraq da Rusiyanın da Türkiyəyə qaz satmağa və ticarətə ehtiyacı var".

O.Qafarlı deyir ki, hazırda Rusiya-Türkiyə münasibətləri son 300 ildə ən yaxşı dönəmini yaşayır. Lakin bu münasibətlər yenidir və Rusiyanın Ermənistanla bağlı mövqeyinə təsir etməsi mümkün deyil: “Həttə bir-biri ilə münasibətlərinə hər iki tərəfin qarşılıqlı istəkləri var bu formada davam etməsinə. Rusiya üçün Türkiyə enerji və iqtisadi sanksiyalardan qaçma koridoruna çevrilməkdədir.

Türkiyə Rusiyaya qarşı AB-nin və ABŞ sanksiyalarına qoşulmadı. Rusiya istiqamətində müstəqil siyasətinin olduğunu hər kəsə göstərmiş oldu. Ən önəmlisi bu addımı ilə Rusiya münasibətlərində qarşılıqlı inam inşa edə bildi. Belə bir addım Rusiya üçün böyük əhəmiyyəti vardı. Çünki indiki məqamda Rusiyanın məhz belə bir dövlətlərə ehtiyacı var ki, münasibətlər qura bilsin. Lakin 10 illik münasibətlər təəssüf ki, Rusiyanın Cənubi Qafqazda strateji əməkdaşı olan Ermənistandan imtina etməsini gətirib çıxara bilməz. Bunun üçün Azərbaycan-Türkiyə-Rusiya münasibətlərinin uzun zamana dayanan əməkdaşlığına lüzum var".

❑ **KƏNAN**

# "Azadlıq" radiosu ilə bağlı başlanan danışıqlar nə vəd edir?

## Ərəstun Oruclu: "Bu səviyyədə müzakirələrin getməsi müsbət tendensiyadır"

**Son günlər "Azadlıq" Radiosunun Bakı redaksiyasının bağlanması və fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı məsələ yenidən gündəmə gəlib. Xarici işlər naziri Elmar Məmmədyarovun ABŞ nümayəndə heyəti ilə görüşündə bu məsələ daha geniş müzakirə olunub.**




Qeyd edək ki, Elmar Məmmədyarovla görüşdə Birləşmiş Ştatların Azərbaycandakı səfiri Robert Sekutanın rəhbərlik etdiyi və ABŞ-ın Yayım Şurası idarə heyətinin beynəlxalq yayımlar üzrə bürosunun direktor müavini Cefrey Trimbli və "Azadlıq" Radiosunun maliyyə məsələləri üzrə vitse-prezidenti Con Giambalvonun da yer aldığı nümayəndə heyəti iştirak edib. Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli əməkdaşlığa dair fikir mübadiləsi aparılıb və "Azadlıq" Radiosunun fəaliyyətinə aid məsələlər müzakirə olunub.

Toplantıdan sonra Robert Sekuta Azadlıq Radiosu barəsində mətbuata açıqlama verib: "Biz hesab edirik ki, "Azadlıq" Radiosu işləməli və jurnalist standartına ən uyğun şəkildə fəaliyyətini davam etdirməlidir".

Ekspertlər hesab edirlər ki, son görüşlər və ABŞ səfirinin bu açıqlaması "Azadlıq" Radiosunun fəaliyyətinin bərpa edilməsinə, həbsdəki jurnalist Xədicə İsmayılın azad olunmasına müsbət təsir edəcək.

"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu danışıqların aparılmasının müsbət effekt verəcəyini düşünür: "Əgər XİN və "Azadlıq" Radiosunun Yayım Şurasının vitse-prezidenti səviyyəsində danışıqlar gedirsə, bu müsbət tendensiyadır. "Azadlıq" Radiosu geniş auditoriyası olan, ölkənin inkişafında böyük rol oynayan bir media qurumudur. Hesab edirəm ki,


Ərəstun Oruclu

istənilən medianın qapadılması yanlışdır. Dövlət və cəmiyyətin xeyrinə heç nə vəd etmir. Aydın məsələdir ki, rəsmi danışıqdan əvvəl hər hansı bir anlaşma əldə olunur. Yəni danışıq prosesinin özünün başlamaqla bağlı razılığı nəzərdə tuturam. Azərbaycan tərəfi artıq bu barədə danışıqlara başlayıb. Ümid etmək olar ki, bu müsbət nəticələr verəcək. Amma təbii ki, münasibətlər tam aydınlaşmayıb. Azərbaycan-ABŞ münasibətlərində müzakirə olunmalı çox məsələlər var. Hər halda Azərbaycan ikitərəfli münasibətlərdə müsbət addımlar atır. Bunun nəticələrini zaman göstərəcək. Amma müzakirənin özünün başlaması müsbətdir".

Ə.Oruclu danışıqların Xədicə İsmayılın azadlığa buraxılmasına müsbət təsir edib-etməyəcəyi barədə sualımıza belə cavab verdi: "Bu barədə fikir söyləmək çox çətindir. Məlumat da yoxdur. Amma istənilən halda Xədicə İsmayıl sıradan bir jurnalist deyil. Uzun müddət "Azadlıq" Radiosunda çalışıb. Bakı ofisinin rəhbərlərindən biri olub. Bu baxımdan onunla bağlı danışıqların olması istisna deyil. Prosesə təsir göstərəcəyi barədə fikir söyləmək çətindir. Çünki son vaxtlar tamam başqa şeylər gördük. Şahidi olduq ki, Con Kerri ilə telefon danışığının ardından Xədicə İsmayıl həbs olundu. Daha sonra ABŞ rəsmisinin səfəri ərəfəsində Xədicə İsmayıla yeni ittihamlar irəli sürüldü. Hər şey dövlət başçısının qərarından asılıdır. Xədicə İsmayılla bağlı məsələlərin arxasında qərəz dayanır. Qərəzin aradan qaldırılması mənə daha çətin görünür".

Politoloq Azərbaycanın ABŞ-a qarşı sərgilədiyi mövqeyə də toxundu: "Bunlara müxtəlif ad vermək olar. Onu qeyd edə bilərəm ki, Azərbaycanın hazırda ABŞ-a qarşı siyasəti müsbət heç nə vermir. Bu gün açıq şəkildə görürük ki, Rusiya bizim üçün daha böyük təhlükədir. Son bir həftədə baş verənlər heç kəsə aydın deyil. Bütün bunların arxasında daha aqressiv Rusiya görə bilərik. Bizə çoxşaxəli siyasət lazımdır. Təəssüf ki, şaxələrin çoxu sıradan çıxarılıb. Bunu bərpa etməyin nə qədər zamana başa gələcəyini deyə bilmərəm. Bir qədər daha çevik siyasət aparmaq vacibdir. Çünki proseslər düşündüyümüzdən daha sürətlə dəyişir".

❑ **Cavanşir ABBASLI**

# Bu həftə əfv gözlənilir

## İşçi Qrupunun bayramqabağı toplantısı olmaya bilər; Mirvari Qəhrəmanlı: "Proses tezləşəcək..."

**Hazırda mətbuat və cəmiyyətin əsas müzakirə mövzularından biri yaxın günlərdə əfv sərəncamının veriləcəyi barədə xəbərdir. Ölkə başçısına müraciət edən siyasi məhbusların veriləcək əfvdə azadlığa çıxma şansları daha yüksəkdir. Bu istiqamətdə ən ciddi iş görən qurum İnsan Haqları üzrə Birgə İşçi Qrupudur. Qurum artıq məhbus siyahısını hazırlayaraq, Əfv Komissiyasına təqdim edib. Ancaq martda İşçi Qrupunun toplantısının keçirilməsi nəzərdə tutulsa da, iclasın olmaması müəmmalı qalır.**

İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı ilə əfvlə bağlı söhbət etdik. Hüquq müdafiəçisi bayrama qədər əfv olacağı anonsunu verdi: "Düşünürəm ki, Novruza qədər əfv olacaq. Kimin sevinəcəyini bilmirəm, amma sevinənlər olacaq. Çoxlu sənədlər hazırlayıb Əfv Komissiyasına göndərmişik. Komissiyaya daxil olan bəzi insanlarla görüşmüşük. İşçi Qrupu təkcə QHT-lərdən ibarət deyil. Biz sadəcə problemləri qaldırırıq. Əlimizdən nə gəlirsə edirik. Düşünürəm ki, əfv olacaq".

M.Qəhrəmanlı İşçi Qrupunun iclasının baş tutmamasına da aydınlıq gətirdi: "Görüşsək yaxşı olardı. Amma yəqin ki, bayrama kimi görüşmək mümkün olmayacaq. Zamanı biz müəyyənləşdirmirik, buna görə QHT-ləri ittiham etmək düzgün deyil. Dekabrda çox işlər təqdim etdik. Amma bir qisminə baxıldı. Qalan işlər üzərində çalışıb, yenidən təqdim etdik. Hər məlumatı mətbuata verib, insanları həyəcanlandırmaq olmaz. Nəticə olanda insanlar İşçi Qrupunu qiymətləndirəcəklər".


Mirvari Qəhrəmanlı

Hüquq müdafiəçisi azadlığa çıxma ehtimalı yüksək olan məhbuslar barədə də danışdı: "Əfv Komissiyasına daxil olsam, daha inamla danışardım. Bilirəm ki, cəmiyyət daha çox hansı tipli məhbusların azadlığa çıxacağı sualının cavabını gözləyir. Bu suala cavab verməyim çox narahatçılığa səbəb ola bilər. Zaman-zaman bütün siyasilərin məsələsini qaldırmışıq. Şərt deyil ki, məhbuslar şəxsən əfv ərizəsi yazmalıdır. Biz əfv müraciəti yazmayan bir məhbusun məsələsini qaldırdıq, müzakirə edib azadlığa buraxdılar. Bizim üçün fərqi yoxdur. Hətta barələrində məhkəmə işləri gedən məhbusların məsələlərini də qaldırmışıq. Hansı işi görməyə gücümüz çatırsa, görürük. Amma icraedici orqan deyilik. Səlahiyyətimiz çərçivəsində hərəkət edirik. Sizin suallara konkret cavab verə bilmirik. Bizə müraciət edən bütün məhbusların işlərinə baxıb, Əfv Komissiyasına göndərmişik. Heç kəs qətiyyən narahat olmasın".

Mirvari Qəhrəmanlı əfv günü və prezidentə müraciət edən 7 məhbus barədə də danışdı: "Çox güman ki, əfv tezləşəcək. İnanıram ki, hər kəs məhbus yaxınını bu bayramda görüb, şad olacaq. Əfv yazan məhbusların çıxma ehtimalları müəyyən qədər yüksək görünə bilər. Amma bir daha qeyd edirəm ki, fərq qoymamışıq. Bir qrup insan var ki, mətbuat və sosial şəbəkələrdə "İşçi Qrupu heç nəyə lazım deyil" fikirlərini yayaraq, insanları ruhdan salırlar. İşçi Qrupu imitasiya üçün yaranmayıb. Zaman gələndə hər kəs bunu anlayacaq".

❑ **Cavanşir ABBASLI**

# Rusiya dünyanın qorxunc röyasına çevrilib



**Azər RƏŞİDOĞLU**

**Avropa Şurası "Ukrayna dərsi"nə görə Rusiyaya qarşı sanksiyaların müddətini uzatmaq qərarına gəlib. Ölüsü və dirisindən bir xəbər çıxmayan Putin ölkəsini fəlakətə sürükləyə bildi.**

Putinin imperiya ambisiyaları yalnız Ukrayna üçün deyil, eyni zamanda Azərbaycan üçün də təhlükəlidir. Kremlin hədəfi yenə də Bakıdır. Rusiya bölgədə hegemonluğa nail ola bilmək üçün Cənubi Qafqaz ölkələrinə təzyiqlərini artırır. Artıq demokratik dünya "rus ayısı"nın əməllərindən cana yığılıb. "Yumşaq güc" nümayiş etdirən ABŞ tədricən dünya ictimai rəyində mövqeyini və nüfuzunu itirməyə başlayır. Onun yerinə həmin nüfuz və mövqelər Rusiya və amerikalılara nisbətən qlobal hadisələrə təsir edə bilmiş ölkələrə keçir. Təbii ki, bu insan haqlarına sayğı ilə yanaşan bütün insanları narahat edir. Artıq dünyanın anti-demokratik ölkələri demokratik Qərbə qarşı birləşir. Neft və qazın şantaj aləti və manipulyasiya kimi istifadə olunmasının, bu amilin daşımaların inhisara alınması cəhdinin heç bir hüquqi əsası yoxdur. Heç kim qonşunun ərazi bütövlüyünə müdaxilə edə, demokratik hərəkata təsir edə bilməz.

Prinsipcə, Rusiya çoxdan planlaşdırdığı siyasəti həyata keçirir. Təsadüfi deyil ki, Krımı işğaldan sonra ardınca Kreml Qərblə bütün əlaqələrini kəsməyi planlaşdırır. Belə çıxır ki, "Ukrayna dərsi" bir növ "qisas aksiyası"dır.

Amma Rusiya növbəti dəfə səhv edir. Şimal ölkəsi bununla öz ətrafındakı siyasi həlqəni bir az da daraldacaq. Təcrid prosesi labüd olacaq. Getdikcə aydınlaşır ki, Rusiya artıq MDB məkanının uzaqlaşan keçmişidir.

Ola bilsin, Rusiyanın bu səhvi onun üçün sonuncu olacaq. Vaxtilə keçmiş Yuqoslaviyada da Rusiya çox fəallıq göstərmişdi. Nəticəsi nə oldu? Separatçı rejimlər Rusiyanın əlində bəzi MDB ölkələrinin xarici siyasətinə təsir etmək, müstəqilliyini məhdudlaşdırmaq üçün vasitədir. Bu, əbədi asılılıq deməkdir. Baxmayaraq ki, bəzi rejimlər bunu əbədi dostluq kimi qələmə verirlər. Rusiyanın isə dostları yoxdur, onun əbədi maraqları var. Bu maraqlar bütün vasitələrlə Ukraynada və Cənubi Qafqazda qalmağı diqtə edir, çünki Cənubi Qafqaz Yaxın Şərqə çıxışdır, bura Şimali Qafqazın astanasıdır.

Cənubi Qafqazda da Baltikyanı respublikalarda olduğu kimi, birlik və həmrəylik olsaydı, Rusiyanın bu ərazini tərk etməsi asanlaşardı. Amma belə birlik yoxdur, Rusiyanın çoxəsrlik maraqları bu bölgəni ziddiyyətli hissələrə parçalayıb.

İndi hər şey geosiyasi templərdən asılıdır. Hər şey dünya birliyinin Rusiyaya ardıcıl təzyiqindən asılı olacaq. Bu təzyiqlər isə özünü daha artıq hiss etdirməkdədir.

Hətta münaqişəyə cəlb olunmayan ölkələr belə etiraf etdilər ki, bölgədəki sabitlik çox kövrəkdir. Elə dondurulmuş münaqişələrin də donu hər an açıla bilər. Bu isə Rusiyanın sabitlik potensialını heçə endirir. Bölgənin yeni təhlükəsizlik arxitekturasına ehtiyacı var. Nə MDB, nə Kollektiv Təhlükəsizlik Müqaviləsi bunu təmin etmək iqtidarında deyil. Hər şey daha müasir əsaslarla qurulmalıdır. Bunun üçün isə bölgəyə NATO-nun gəlişi labüddür. NATO təkcə bölgədə geosiyasi nizam-intizam yaratmaq üçün lazım deyil. O, həm də üzv qəbul etdiyi ölkələrin daxili siyasi həyatına bir qayda gətirərdi, onları demokratiya istiqamətinə yönəldərdi. Bəzi ölkələrin NATO-ya qarşı ehtiyatlı münasibətinin əsasında məhz sonuncu amil dayanır. Özü avtoritar olan və avtoritar rejimləri dəstəkləyən Rusiya onlar üçün daha cəlbedicidir. ABŞ prezidenti deyir ki, dünyada azadlığın və demokratiyanın yayılmasını Rusiya öz maraqlarına təhlükə hesab edir.

Bu, həqiqətən də belədir. MDB getdikcə qorxunc strukturu xatırladır-saxta seçkilər, ömürlük prezidentlər...

Tarixi təcrübə göstərir ki, dünyada heç bir ideya azadlıqla rəqabət apara bilmir, gec-tez azadlığa məğlub olur. MDB respublikaları da hələ də azad deyillər. Amma onların da azad olmasına çox qalmayıb. O gün gələcək. Yeni dünya nizamı, qloballaşma, demokratikləşmə sərhədlərini genişləndirməkdədir. Bu sərhədlərdə Putin kimi diktatorlara yer yoxdur...

YENİ MÜSAVAT
N 58 (6086) 16 mart 2015










# Milli Şura Bakıda mitinq keçirdi

## "Zülmə boyun əymək olmaz, mübarizə aparmaq lazımdır"

**Martın 15-də Milli Şuranın Bakıda planlaşdırdığı mitinq baş tutub. "Məhsul" stadionunda keçirilən "Talana son!" mitinqi dövlət himninin oxunması ilə açıq elan edilib. AXCP sədrinin müavini Əbülfəz Qurbanlı bildirib ki, stadionda Azərbaycan xalqı var, ölkənin talanmasına "Yox!" deyənlər var, azad olmaq istəyən insanlar var: "Bu meydanda bütün Azərbaycan var!".**

AXCP sədri Əli Kərimli isə çıxışında bildirib ki, bu gün meydana toplananlar bir nəfər kimi hakimiyyətin talanına "yox" deyənlərdir: "Uca millətim! Səni çaşdırıb, aldada bilmədilər. Yenə meydanlardasan. Onları - sənə zülm edənləri yox, sənə azadlıq gətirmək istəyənləri seçdin. Eşq olsun sizlərə! Azərbaycan xalqına on illərlə zülm edən sülalə hakimiyyəti sizlərdən qorxur. Çalışdılar ki, buraya, bu meydana gəlməyəsiniz. Neçə həbslər oldu, şayiə mexanizmini işə saldılar. Bir amalları vardı, siz qəddinizi düzəltməyəsiniz. Yox demək üçün meydanlara axışmayasınız. Amma siz onları məyus etdiniz. Bu gün bu meydanı doldurdunuz. Bizim hamımızı bu gün bu meydana toplayan 21 fevralda hökumətin hamımızın cibinə girməsi, 34 faiz bizi kasıblaşdırması oldu. Ondan əvvəl isə bizə vəd verirdilər. Dekabr ayında dövlət başçısı dedi ki, neftin qiymətinin düşməsini hiss etməyəcəksiniz. Yanvarda dedi ki, hamınız pulunuzu manatda saxlayın, narahat olmayın. Fevralda isə milyonlarla manat xalqa ziyan vurdular. Bu gün buradayıq ki, bu talana yox deyək. Çünki sosial-iqtisadi böhran bir təbii fəlakət deyil, obyektiv səbəblərlə bağlı deyil. Sizin yarıtmaz siyasətinizin nəticəsidir!". Çıxışının sonunda Ə.Kərimli qeyd edib ki, xalqın mübarizəsi nəticəsiz qalmayacaq: "Biz öz azadlığımıza qovuşacağıq!".

AXCP sədrinin müavini Gözəl Bayramlı isə bildirib ki, hakimiyyət xalqla hesablaşmır: "Azərbaycan dərin sosial-iqtisadi böhran içərisindədir. Hakimiyyətin apardığı yarıtmaz siyasət buna gətirib çıxarıb. Azərbaycan iqtisadiyyatı neft üzərində qurulub, neftdən asılı duruma salınıb. Azərbaycan hakimiyyəti xalqla hesablaşmır. Biz bu siyasətə, bu talana "yox!" demək üçün buradayıq".

Milli Şuranın üzvü Hacı Rövşən Əhmədli isə meydana gələnləri bu cür salamlayıb: "Zülmətə boyun əyməyib, öz qorxusuna üstün gəlib meydana gələn cəsarətli insanlara salam olsun. Torpaqların azadlığını gözləyən şəhid ruhlarına salam olsun. Əsirlikdə azadlığını gözləyən Azərbaycan insanına salam olsun. Zülmə boyun əymədiyinə görə məhbəsdə olan Azərbaycan insanına salam olsun. Bu gün bu millətin yalnız manatı oğurlanmayıb. Millətin haqqına təcavüz ediblər. Biz buna "yox!" deyirik". O, son olaraq vurğulayıb ki, zülmə boyun əymək olmaz, mübarizə aparmaq lazımdır.

AXCP sədrinin müavini Fuad Qəhrəmanlı isə deyib ki, manatın ucuzlaşdırılması hakimiyyətin Azərbaycan xalqının başına gətirdiyi növbəti fəlakətdir: "Azərbaycan hakimiyyətinin ən böyük ümidi o idi ki, bu özbaşınalıqla, azğınlıqla bu xalq barışacaq. Ümid edirdilər. Ancaq bu gün meydana gələnlər hakimiyyətin üzünə çırpdı ki, biz kölə deyilik, biz xalqıq. Bu ölkədə təkcə manat yox, bizim bütün haqqımız oğurlanıb!".

Milli Şuranın sədri Cəmil Həsənli isə ilk olaraq gəncliyi salamlayıb və xalqının gələcəyinin onların mübarizəsindən asılı olduğunu vurğulayıb. O, mitinqin keçirilməməsi, alınmaması üçün hakimiyyətin bir çox yollara əl atdığını, hətta onun profilini oğurladığını xatırladıb: "Mayası oğurluqla tutulmuş hakimiyyətdən bundan artıq nə gözləmək olar? Əvvəl Əliyev sülaləsi hakimiyyəti oğurladı, sonra sərvətləri. Sonra səs oğurluğuna keçdi. Bu millətin haqqını oğurladı, sonra da profil oğurlamağa keçdi. Oğurluğu bu halal ölkədə ənənəyə keçirənlərə ar olsun!". Onun sözlərinə görə, nə vaxta qədər ki, xalq haqqını tələb etməyəcək, haqqı yeyiləcək: "Heç bir əzazil rejimədədi deyil. Bir gün bu xalq bu rejim üzərində öz qələbəsini qeyd edəcək".

Sonda mitinqin qətnaməsi səsləndirilib. Qətnamədə ilk olaraq manatın qəfil ucuzlaşmasının nəticəsində xalqa dəymiş ziyanın kompensasiya edilməsi tələb edilib. Həmçinin, maaşların, pensiyaların azı 30-40 faiz artırılması, korrupsiya və monopoliyanın durdurulması, bank kreditlərinin faizlərinin aşağı salınması, sahibkarlara qarşı təzyiqin dayandırılması tələb olunub. Eyni zamanda, Qarabağ qazilərinə qanunvericilikdə nəzərdə tutulan qan pulunun ödənilməsi, seçki islahatının aparılması, siyasi məhbusların azad edilməsi və Avropa Birliyi ilə assosiasiya sazişinin imzalanması da tələblər arasındadır.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

















**"Baxış bucağı"**

**Martın 17-də Azərbaycan hökuməti Milli Məclis qarşısında illik hesabatını təqdim edəcək. Bahalaşma dalğası, manatın devalvasiyası, sadə vətəndaşlardan tutmuş ayrı-ayrı iş adamlarına qədər insanların şikayətlərinin artdığı şəraitdə hökumətin hansı arqumentlərlə çıxış edəcəyi çox maraqlıdır. Gözlənilən budur ki, deputatlar da ənənəvi hesabatlardan fərqli olaraq bu dəfə kabinet üzvlərindən konkret suallarına cavab istəyəcəklər. Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə də hökumətə ünvanlı konkret və ciddi sualların olduğunu söylədi:**

# "Bəlkə hökumət çıxıb üzr istəyəcək"

## İqbal Ağazadə: "Necə yəni qiymətləri qaldırma? Sən mənə malmı vermisən, deyirsən malımı bu qiymətə sat?"

- Təbii ki, suallar gözləniləndir. Əslində 2015-ci ilin üç ayı ərzində ümumi daxili məhsulla bağlı verilən rəqəmlər doğru deyil. Keçən ilin ilk üç ayı ərzində 8,4 mlrd. ümumi daxili məhsul elan ediblər. Bu il isə deyirlər 4,1 faiz artım var. Hansı artımdan söhbət gedir, bu, necə nəzərdə tutulub? İqtisadi doktrina ilə bağlı dəfələrlə hökumət qarşısında məsələ qaldırmışdıq. Hökumət "neftimiz var, nə etməliyik" kimi cavablar vermişdi. Parlamentdə mənə verilən cavablarda bir ritorika var idi. Bununla bağlı mövqeyimizi ifadə edəcəyik. Mən həmişə demişdim ki, neftin qiymətini Azərbaycan müəyyən etmirsə, sabah bazarda nə baş verəcəyindən asılı olaraq ölkə iqtisadiyyatı çökəcək. Bu gün faktiki onunla üz-üzə qalmışıq. Artıq ayrı-ayrı nazirliklərin və strukturların təmərküzləşməsi ilə bağlı hökumət qərar qəbul etməlidir. Bu qədər nazirliklər, komitələr, strukturların olmasının heç bir mənası yoxdur. İdarəçilik daha az xərclə həyata keçirilməlidir. Bu tipli kifayət qədər məsələlər var.

***- İqbal bəy, vətəndaşları qayğılandıran əsas məsələ manatın kursundakı dəyişiklik olduğu üçün hesab olunur ki, əsas suallar baş bankir Elman Rüstəmova ünvanlanacaq. Sizin də cavab istədiyiniz suallar varmı?***

- Təbii ki, Elman Rüstəmov da sual qarşısında qalacaq. Ancaq hesab etmirəm ki, bu, Elman Rüstəmovun özbaşına fəaliyyətidir. Bu, Azərbaycan hökumətinin bütövlükdə qəbul etdiyi qərardır. Elman Rüstəmov, sadəcə, onu elan edib.

***- Onun bu müddətdə ortaya çıxmaması hətta iqtidara yaxın deputatları da narazı salıb...***

- Ola bilər elə şeylər olsun. Amma mən iqtidara tam kimi baxıram. Mənimçün ayrı-ayrı məmur yoxdur, iqtidar bütövdür. Neqativ faktlarda, rüşvət almada, korrupsiyada, yaxud da işin icra edilməməsində fərdlərin rolu var. Amma bütöv siyasətin içərisində ayrı-ayrı nazirliklərin, komitənin, yaxud hansısa qurum sədrinin rolu yoxdur, siyasət ümumidir.

***- Əvvəlki illərdə hesabat günü hökuməti istefaya getməyə çağırmısınız. Bu dəfə eyni tələb qüvvədə qalırmı?***

- Çox şey hökumətin nə deyəcəyindən asılıdır. Bəlkə hökumət çıxıb üzr istəyəcək, deyəcək bunlar bizim səhvlərimizin nəticəsində olub, səhvlərimizi düzəldəcəyik.

***- Adətən tənqidlərə, istefa çağırışlarına baxmayaraq, yekunda bir neçə nəfər istisna olmaqla hökumətin hesabatı qəbul olunub.***

- Parlament çoxluğu YAP-çılardan ibarətdir və nəticəni parlament çoxluğu təmin edir. Təəssüflər olsun ki, burda bizim edə biləcəyimiz bir şey yoxdur. Parlament çoxluğuna nail olmaq lazımdır.

***- Ombudsmanın hesabatı qadınlar bayramı ərəfəsinə düşdüyü üçün məruzəni bayram xətrinə qəbul etdilər. Yəqin hökumətə də ilaxır çərşənbə güzəşti olacaq...***

- Yox, hökumət ciddi məsələdir. Ombudsmanla bağlı mövqeyimi demişəm, Azərbaycanda Ombudsman İnstitutu yoxdur. O həm institut olaraq, həm də kollektiv olaraq fəaliyyət göstərmir. Ona görə də mən fəaliyyəti olmayan bir qurum haqqında nə danışım? Amma Nazirlər Kabinetinin iştirakı ilə büdcə qəbul olunur, büdcəni icra edir və s. Bunlar ayrı-ayrı şeylərdir.

**"Mən məsələ qaldırandan sonra iş adamları parlamentə teleqram vurdular ki, "Bizim adımızdan siyasi məqsəd üçün istifadə olunmasın""**

***- Hesabat günü Hüseyn Abdullayevlə bağlı məlum olaya bənzər hadisə təkrarlana bilərmi?***

- Hökumət nümayəndələri, hökumətə yaxın deputatlar içərisində növbəti Hüseyn Abdullayevin olduğunu güman etmirəm.

***- Söhbətimiz əfv gözləntilərinin olduğu bir dövrə təsadüf edir. Siz dəfələrlə amnistiya və əfv çağırışları edibsiniz. Necə bilirsiniz, Avropa Oyunları ərəfəsində siyasi məhbuslarla bağlı problem həllini tapacaqmı?***

- Amnistiya gözləmirəm, çünki olsaydı, qanun layihəsi parlamentə göndərilərdi. Əfv gözləyirəm. Amma problem birdəfəlik həll olunmayacaq. Çünki hələ məhkəməsi tamamlanmamış siyasi məhbus hesab etdiyimiz kifayət qədər adamlar var. Amma məhkəməsi bitmişlərin də hamısının əfv ediləcəyini gözləmirəm. Hökumətin də bu gün fərqli bir siyasəti var. Hökumət Qərblə kəskin qarşıdurmaya getmək istəmir, amma yumşaq qarşıdurmadan da çəkinmir.

***- Elə isə ənənəvi suallardan biri: Azərbaycan hakimiyyəti bu gün kimin yanındadır, Rusiyanın, yoxsa Qərbin?***

- Hakimiyyətin siyasəti bəllidir. Hakimiyyət Qərbin yanındadır. Ona görə də sadəcə, "yanındayam deyə, mənə bu qədər təzyiq edə bilməzsən" deyib Qərbin üzərinə gedir, başqa bir şey yoxdur.

***- Rusiya təhlükəsinin kifayət qədər real olması fikri ilə razısınızmı?***

- Rusiya hər zaman təhlükədir. Cənubi Qafqazdan çıxmayana qədər, imperiya maraqlarından imtina etməyənə qədər hər zaman təhlükəlidir. Ukrayna, Moldova, Cənubi Qafqaz üçün təhlükə davam edir. Orta Asiya hələlik Rusiyanın istədiklərini yerinə yetirmiş kimi görünür. Ona görə də hələlik orda konfliktlər yoxdur. Amma ilk fürsətdə Rusiyaya qarşı çıxacaq bir Orta Asiya cümhuriyyəti olarsa, orda da konfliktlərin və Rusiya "maşa"sının işə düşəcəyi şəksizdir. Təəssüf ki, dünya da hələlik Rusiyanı durduracaq mexanizmə malik deyil.

***- Rusiya rəhbəri Azərbaycan rəsmilərini təltif edirsə, bu, Bakı ilə Moskva arasındakı münasibətlərin göstəricisi sayıla bilərmi?***

- Bunlar boş, mənasız şeylərdir və heç bir əhəmiyyəti yoxdur. Azərbaycan tərəfindən olanlar da çox gözəl bilirlər ki, o təltif olunmanın heç bir əhəmiyyəti yoxdur. Rusiya tərəfi də bunu yaxşı bilir. Sadəcə, görünən tərəfdə publikaya, Qərbə mesaj verir. Həm də bu kimi mövqelərlə yanında saxlamağa cəhd edir. Bu, Azərbaycan hakimiyyətinin, yaxud ayrı-ayrı adamların mövqeyini dəyişmir.

***- Parlament seçkilərində iştirakla bağlı müxalifətə yeni bir model təklif edirsinizmi?***

- Biz geniş birlik təklif etdik. Çünki qalib gəlmək üçün resurslar ayrı-ayrı partiya rəhbərlərinin dediyi səviyyədə deyil. Biz də gücləri, mövqeləri, imkanları bilirik. Hələlik bir sıra partiyalar bununla razılaşmır. Razılaşanlar isə bütövlükdə ictimai-siyasi situasiyanı tam şəkildə dəyişə biləcək gücdə deyillər. Onların hamısına hörmət edirəm, hamısı kifayət qədər mübarizə aparmış, mövqe ifadə etmiş adamlardır. Amma reallıq budur ki, siyasi partiya olaraq güclər ictimai-siyasi vəziyyəti dəyişməyə yetmir. Ona görə biz də hələlik ələhiddə qaydada gedirik. Amma bizim "125-lər" formatımız var. ADP, "125-lər Klubu" və Ümid Partiyası. Hesab edirəm seçki marafonuna bütün indiyə qədər olan formatların hamısından daha uğurlu və daha güclü çıxacaq. İndiyə qədər siyasətdə olmayan, yaxud siyasətdən qaçmaq istəyən, ictimai-siyasi mövqeyi və çəkisi olan insanlar "125-lər Klubu" çərçivəsində birləşir. Bu, olduqca uğurludur və onlar yeni bir ictimai-siyasi prosesə fərqli bir dinamika, ritorika, düşüncə və yanaşma gətiriblər. Bu, özü əslində çox pozitivdir. Hesab edirəm ki, bu pozitivlik də udacaq. Ən azı ortaya yeni xətt və yeni yanaşma qoyacaq. Əslində biz proses aparırıq. Təbii ki, həm də qalib gəlməyi düşünürük. Amma qalib gəlməmək hər şeyi itirmək demək deyil. Demokratiya bir prosesdir, bu prosesi aparmaq lazımdır. Seçkilər bir vərdişdir, bu vərdişin sıradan çıxmasına imkan vermək olmaz. Biz bunun üçün də mütləq seçici ilə ünsiyyətdə olmalı, onun yanında olmalıyıq, mövqeyimizi ifadə etməliyik və nəhayətdə qalib gəlməyin yollarını aramalıyıq.



**"Qalib gəlməmək hər şeyi itirmək demək deyil..."**

***- Hakimiyyət-müxalifət dialoqunun məntiqi nəticəsi olaraq parlament seçkilərində müxalifətə müəyyən faizdə yer tanına bilərmi?***

- Bu gün onu ifadə etmək çox çətindir. Çünki dialoq özü çox pozitiv mesaj olsa da, hələlik konkret mövzu ətrafında gəldiyimiz bir nəticə olmayıb. Hələ mövzunu, formatı müəyyən edirik. Aprel görüşü bu mənada yeni bir mərhələnin başlanğıcı ola bilər. Bu, olacaq, ya olmayacaq, bunu zaman göstərəcək. Məsələn, mən seçki məsələsini müzakirə etməyin tərəfdarı deyiləm. Çünki dəqiq bilirəm ki, bu şərtlər çərçivəsində hakimiyyətin Seçki Məcəlləsinə dəyişiklik etmək kimi bir niyyəti yoxdur. Seçki Məcəlləsinə dəyişiklik etmək niyyəti yoxdursa, seçkidən niyə danışmalıyıq ki? Biz daha konkret məsələlərdən danışa bilərik, məsələn, siyasi dustaqların həbsdən azad olunması, məhkəmənin ədalətli aparılmasından danışa bilərik. Burdan başlayan qalibiyyət, burdan qazana biləcəklərimiz bizim sonrakı addımlar üçün stimul ola bilər. Tutaq ki, hamı 2015-ci ilin seçki ili olduğuna görə seçkidən danışmağa çalışır. Amma heç kəs hesablamır ki, seçkidən nəyi danışacağıq? Seçki Məcəlləsi dəyişməyəcək, seçkini demokratik keçirtmək üçün bunu danışıqlar yolu ilə həll etmək kimi bir şey yoxdur. Hakimiyyət zatən deyir ki, seçkilər demokratik keçir. Ona görə də mən müxalifətin sırf iki-üç məsələnin üzərində köklənməsinin tərəfdarıyam. Azərbaycan hakimiyyəti və müxalifəti siyasi məhbuslarla bağlı üzərinə öhdəliklər götürülməlidir. Həmçinin korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə ictimai institutlarda müxalifətin təmsilçiliyi olmalıdır.

***- Sahibkarlara qarşı təzyiqlər, xüsusilə vergi orqanlarının əlavə ödənişlər tələb etməsi hansı vəziyyət yarada bilər? Ümumiyyətlə, müxalifət narazı sahibkarlarla işləyirmi?***

- Mən ayrı-ayrı iş adamlarının, sahibkarların, orta təbəqənin zaman-zaman vergidən, gömrükdən, hüquq-mühafizə orqanlarının müxtəlif qanadlarından şikayətləndiyinin dəfələrlə şahidi olmuşam. Amma Azərbaycanda sabit orta təbəqə deyilən anlayış yoxdur. Bunlar ya məmurların çətiri altında fəaliyyət göstərir, ya çox kiçicik imkanlara malikdirlər ki, onlara da orta təbəqə demək mümkün deyil. Xırda iş adamları var ki, onların problemlərində hakimiyyətin ümumi yanaşması dəyişilməlidir. Mən sizi əmin edirəm ki, hakimiyyət bir balaca onlara güzəşt edən kimi onlar siyasi mövqeyini dəyişirlər, dərhal əvvəlki iddialarından geri dururlar, cari qazanclarından başqa bir şeyi düşünmürlər. Hətta təzyiqlərdən danışmaq belə istəmirlər. Ona görə də o təbəqə ilə işləyib sona qədər sistem qurmaq çox çətindir. Hətta mənim təcrübəmdə belə bir şey də olmuşdu. Bir qrup iş adamı mənə müraciət etmişdi, bir strukturdan gileyli idilər. Mən parlamentdə məsələ qaldırandan sonra onlar parlamentə teleqram vurdular ki, "Bizim adımızdan siyasi məqsəd üçün istifadə olunmasın". Yəni belə şeylər də olur.

***- Yəni sahibkarlar zəhmət çəkib özləri öz dərdlərinə çarə tapsınlar?***

- Yox, əstəğfürullah. Davamlı və ardıcıl olacaqlarsa, biz onların problemlərini hər zaman qaldırmağa borcluyuq. Hətta bizim yanımızda olmasalar belə. Amma məhz onların vasitəsi ilə nəyinsə gerçəkləşməsini, ictimai-siyasi situasiyada dəyişiklik olacağını gözləməyin və onlara da ümid etməyin. Amma sona qədər müdafiə edəcəyik, haqlarını qoruyacağıq, yanlarında olacağıq, hətta bizi qəbul etməsələr belə.

***- İqbal bəy, hökumət nümayəndələri təkidlə bahalaşmanın olduğunu danmaqdadır, digər tərəfdən də süni bahalaşmaya qarşı mübarizə aparıldığını bildirirlər...***

- Bahalaşma birmənalı var. Əslində bahalaşmanın qarşısının alındığı barədə hökumətin mütəmadi bəyanatları yanlışdır. Bu, azad bazar iqtisadiyyatına ziddir, sahibkarın hüquqlarının tapdanmasıdır. Necə yəni qiymətləri qaldırma? Sən mənə malmı vermisən, deyirsən malımı bu qiymətə sat? Mənim malımdan xoşum gəlmir, yaxud bahadır, alma! Heç bir sahibkara bunu demək mümkün deyil. Azad rəqabət formalaşmalıdır ki, qiymətlər təbii surətdə tənzimlənsin. Sən manatı 34 faiz ucuzlaşdır, xammalın Azərbaycanda hətta ərzaq daxil olmaqla 50 faizdən yuxarısı ölkə xaricindən gəlsin, qiymət də bahalanmasın? Necə, hansı yolla? Bunun yolu yoxdur ki. Özləri özlərini aldadırlar. Ola bilsin ki, bir ay köhnə qiymətlə satsınlar, amma qorxusundan. Yaxud düşünsün ki, onsuz da köhnədən gətirmişdim. Amma iki ay sonra belə olmayacaq. Hökumətin özü də gözəl bilir ki, bu, mümkün olmayacaq. Sadəcə, əhaliyə göstərmək istəyir ki, biz qiyməti qalxmağa qoymuruq. Amma qiymət onsuz da qalxır. Hökumət camaatı aldatmaqla məşğuldur. Mən xaricə pul verirəm, qiyməti necə qaldırmayım?

**Elşad PAŞASOY**



# Faşistlərin pensiyası

Zamin HACI
zaminhaci@gmail.com

**Bütün dünya, o cümlədən MDB üzvləri Putini axtardığı bir məqamda Gəncədən həmişəki kimi tragikomik bir xəbər gəldi: şəhərdə... MDB hökumət başçıları şurasının qərarına əsasən "Ordu və xalq birdir" devizi altında bədii-təşviqat marafonunun açılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**

Mən bu xəbəri hökumət saytlarından olduğu kimi köçürtdüm. Qəsdən belə elədim, yoxsa əcaib cümlələrin vurğunu deyiləm. İstədim görəsiniz ki, bizə rəhbərlik edənlər hansı siyasətin nökərləridir. Öz xalqına qulaq asmır, amma MDB kimi saxta, qanunsuz, zorakı, Rusiyanın imperiya siyasətinin aləti olan quruma yaltaqlıq edir. Guya Putin Gəncədəki o düşük tədbirin videosuna baxıb yapistlərə "malades" deyəcəkmiş.

MDB-nin qərarına gələndə, bunu İkinci Dünya savaşında faşizm üzərində qələbənin 70 illiyi münasibətiylə keçirirlər. (SSRİ varisləri o savaşa Böyük Vətən Müharibəsi deyir, baxmayaraq o zorakı vətən çoxdan cəhənnəmə vasil olmuşdur). Ancaq Rusiyanın Ukraynaya savaş açdığı, Gürcüstanın, Azərbaycanın, Moldovanın böyük hissələrini işğal altında saxladığı şəraitdə, faşizmin bir çox keçmiş sosialist düşərgəsi dövlətlərində az qala qeyri-rəsmi dövlət ideologiyasına çevrildiyi günlərimizdə faşizm üzərində qələbədən danışmaq, bunu bayram eləmək ikiüzlülüyün, saxtakarlığın zirvəsidir. Putini, Sərkisyanı, İslam Kərimovu, Nazarbayevi antifaşist saymaq elə təxminən Gimleri və Göbbelsi hazırkı Yerusəlimdə ravvin vəzifəsinə qoymaq kimi bir şeydir. (Bizim də bu sahədə babat kadrlarımız var, sadəcə adlarını çəkmək qorxuludur - onları tənqid edənləri Kürdəxanı qaz kameralarında boğurlar).

Bunlar necə deyərlər, hamıya məlum olan məsələlərdir. Bəs bunu təkrar niyə yazıram? Çünki məntiqi anlamıram. Bəzi azərbaycanlılar eyni anda həm müstəqilliyimizi, üçrəngli bayrağı alqışlaya bilər, Rəsulzadənin canına and içər, ancaq üzünü döndərib "Allah Qorbaçovun evini yıxsın, gül kimi sovet hökumətini dağıtdı", "Stalin kişi adam idi" kimi şüarlar səsləndirər. Bunlar bir-birini inkar edən şeylərdir axı. İnsan necə bu cür, belə rahatlıqla, ürək sakitliyi və arxayınçılıqla ikiüzlü ola bilər? O məşhur sovet lətifəsində kim güc gəlsə onun hərbi formasını geyinib o tərəfə keçən şəkiliyə birdəfəlik alman forması geyinən həmyerlisinin dediyi kimi: "Abdulcabbar, köpəyoğlu, haindi ya o tərəfə keç, ya bu tərəfə, sən bizi bezdirdin axı!"

Faşizm üzərində qələbəni bayram edən keçmiş homo sovetikus-ların başqa bir tragikomik tərəfi də var. Bunu mən təzəlikcə, başqa mövzunu araşdıranda özüm üçün ortaya çıxartdım, həm güldüm, həm dilxor oldum.

Məsələ ondadır ki, hazırda Almaniyada keçmiş Vermaxt-ın (Hitler zamanında alman ordusu) döyüşçüsü olub SSRİ-yə hücuma keçən alman veteranın pensiyası savaşı udan sovet veteranlarının pensiyasından qat-qat çoxdur. Örnək üçün, Vermaxtın hərbiçisi indi Almaniyada 1000 avrodan... 8000 avroya qədər pensiya alır! Burada hərbçinin qulluq müddəti, göstərdiyi igidlik-filan nəzərə alınır. Misal üçün, Rusiyada BVM veteranı 400 dollara yaxın pensiya alır, Azərbaycanda isə vəziyyət lap acınacaqlıdır. Builki rəqəmlər hələ açıqlanmayıb, amma 2014-cü ilin mayına olan vəziyyəti "sabez" naziri Səlim Müslümov açıqlamışdı: Azərbaycanda Böyük Vətən Müharibəsi veteranlarının sayı cəmi 1536 nəfərdir, onların orta pensiyası isə 100 manatdır. O da hələ artımdan sonra 100 manat olmuşdu, ondan qabaq 55 manat imiş! Təsəvvür edirsinizmi? Qəhrəmanlara, veteranlara verilən qiymət budur? Faşist döyüşçüsü qalib döyüşçüdən 10 dəfə çox pul alır, indi özünüz fikirləşin, qalib gələn kimdir...

Ancaq Gəncə tədbirində camaat, o cümlədən veteranlar qarşısında çıxış edib hap-gopa basanların içərisində mən Qarabağı qoyub dabanına tüpürüb qaçan generalların, misal üçün, toy generalı Dadaş Rzayevin adını gördüm. Bundan sonra fikirləşdim ki, bizim veteranlar şükür eləsinlər. Heç olmazsa onların Rzayev kimi komandiri olmayıb, yoxsa indi Göygöl rayonunun adı Yelenendorf qalmışdı.

## Rusiyanın abxaz dəmiryolunu açmaq israrının müdhiş pərdəarxası




# Gümrü bazası Azərbaycana qarşı "dəmir yumruğa" çevrilir - təhlil

### Kreml sərhədlərimiz yaxınlığında böyük hərbi plasdarm yaradır; abxaz yolu işə düşsə, o, 24 saat ərzində Ermənistandakı bazasına çoxlu sayda ağır texnika və 100 minlik hərbi kontingent göndərə biləcək; Moskvanın regionla bağlı planı təhlükəli şəkildə irəliləyir...

**Rusiyanın Azərbaycanın da yerləşdiyi Güney Qafqaza yönəlik planları qorxulu xarakter alıb. Şimal qonşumuz özünün bölgə siyasətini böhranlı Ukrayna olaylarına, iqtisadi sanksiyaların ağırlığına rəğmən, aybaay cilalamaqda və sərtləşdirməkdədir. Əsas hədəf, heç şübhəsiz, postsovet məkanının bu mühüm nahiyəsində Qərbin güclənməsini əngəlləmək, imkan düşən kimi isə onu regiondan birdəfəlik vurub çıxarmaqdır.**

Hər şeydən göründüyü kimi, Moskva bu hədəfə çatmaq üçün müxtəlif istiqamətlər üzrə işləməkdə və çoxşaxəli strategiyalar qurmaqdadır. "Transxəzər" layihələrini sıfırlamaq üçün Xəzər akvatoriyasında hərbi gücün durmadan artırılması, bölgə ölkələrini zorla Avrasiya layihələrinə qoşub vahid rubl zonasının yaradılması, Güney Qafqaz ətrafında (Şimali Qafqazın həmsərhəd muxtar respublikalarında) və bölgənin daxilində - Rusiyanın "müstəqilliyini" tanıdığı Abxaziya və Cənubi Osetiyada öz hərbi mövcudluğunu günü-gündən genişləndirməsi və bu separatçı qurumların sürətlə hərbiləşdirməsi, Ermənistandakı 5 min nəfərlik Gümrü bazasını modernləşdirməyə başlaması bu qəbildən olan fəaliyyət istiqamətləridir.

Rusiyanın öz məqsədlərinə çatması üçün, sözsüz ki, forpost Ermənistan, məxsusən də Gümrüdəki rus hərbi bazası misilsiz əhəmiyyətə malikdir. Əvvəla, o səbəbə ki, bu, Cənubi Qafqazda Kremlin yeganə legitim, beynəlxalq hüquq əsasında mövcud olan obyektidir. İkincisi də ki, bölgənin Moskvanın imperiya maraqlarına manee yaradan 3 müstəqil dövlətindən - Türkiyə, Azərbaycan və Gürcüstandan təxminən bərabər yaxınlıqdadır.

*****

Lakin Ermənistanın Rusiya ilə birbaşa quru sərhədinin yoxluğu, üstəgəl, Abxaziyadan keçən dəmiryolunun illərdir fəaliyyətsiz qalması şimal qonşumuzun regionla ilgili strateji hədəfləri yolunda böyük problem olaraq qalır. Quru əlaqəsi olmadan isə Gümrü bazasını Azərbaycan, Gürcüstan və Türkiyəyə qarşı "dəmir yumruğa" çevirmək qeyri-mümkün görünür.

Son vaxtlar Abxaziya dəmiryolunun açılması ətrafında müzakirələrin intensivləşməsi sonuncu imperativlə izah edilə bilər. Gürcüstanın sabiq müdafiə naziri (2012) Dmitri Şaşkinin bu xüsusda vesti.az portalına söylədikləri kifayət qədər aktual sayıla bilər. Keçmiş nazir Abxaziya dəmiryolunun açılması üçün Rusiyanın ciddi israr və səylər göstərməyə başladığına diqqət yönəldir və bunu onun Qərblə total konfliktə girməsi ilə əlaqələndirir.

Sitat: "Sadəlövhlük olardı düşünək ki, Rusiya-Qərb qarşıdurması yalnız Ukraynadan keçir. Moskva bütün istiqamətlərdə Qərb dəyərlərinə və təsirlərinə qarşı durmağa, öz maraqlarını qorumağa çalışır. Cənubi Qafqazda öz siyasətini yürütmək üçün Kremlə Gümrü hərbi bazasını gücləndirmək çox vacibdir. Bu baza regionda böyük rol oynayır. Lakin quru əlaqəsi olmadan onun möhkəmləndirilməsi real deyil. Hava yolu ilə ora çoxlu sayda silah-sursat daşımaq mümkünsüzdür. Eyni qaydada Moskvaya lazım olan qədər şəxsi heyət daşımaq da qeyri-realdır. Nə vaxt ki, Rusiya 24 saat ərzində Ermənistandakı 102 saylı bazaya ağır texnika və 100 minlik hərbi kontingent göndərə biləcək, o zaman baza təkcə Cənubi Qafqaz yox, daha geniş region üçün nəhəng rol oynaya bilər. Bu sayda texnika və canlı qüvvə göndərməyin yeganə variantı isə abxaz dəmiryoludur. Ona görə də Rusiya üçün onun bu hissəsinin açılması olduqca vacibdir".

Kreml son vaxtlar elə buna da can atır. Çünki Rusiyanın Qafqaz planlarının hamısının əsasında hərbi güc və güclə təhdid amili dayanır.

*****

Bu yerdə abxaz dəmiryolunun şimal qonşumuzun Güney Qafqazla bağlı maraqlarından ötrü əhəmiyyətini anlamaq üçün Krımı Rusiyanın necə ilhaq elədiyinin detallarına nəzər salmaq çox vacibdir: bu günlərdə Qara dənizdəki Rusiya donanmasının sabiq admiralı verdiyi müsahibədə yarımadanın işğalında, oradakı Ukrayna hərbi bazalarının blok edilməsində, digər strateji dövlət obyektlərinin qısa zamanda ələ keçirilməsində, hətta referendumun reallaşmasında həlledici rol oynamış "yaşıl adamlar"dan ("nəzakətli adamlar" da deyilir) danışarkən bildirib ki, onlar əslində Rusiyanın hərbi kəşfiyyat (desant) dəstələrinin üzvləri olub.

Admiralın sözlərinə görə, "yaşıl adamlar" Qara dənizdəki Rusiya bazasından ABŞ kəşfiyyatının belə xəbəri olmadan Krıma gizlicə etap edilib və dərhal zəruri nöqtələrdə qərar tutublar. "Halbuki, çoxları onları guya yerli özünümüdafiə dəstələri hesab edirdi" - deyib admiral.

Söz düşmüşkən, az öncə Putinin özü də Krımın qabaqcadan konkret işğal planının olduğunu gizlətməmişdi...

*****

Gümrüdəki Rusiya hərbi bazası da qonşu ölkələri təhdid altında saxlamaq, qarışdırmaq baxımından bənzər destruktiv rol ala bilər; əgər abxaz dəmiryolu açılarsa. Bəs, Gürcüstan hansısa təzyiqlər altında strateji tərəfdaşları olan Azərbaycan və Türkiyəni də zərbə altında qoyacaq belə varianta gedərmi?

Gürcüstanın sabiq müdafiə naziri bunu istisna edir: "Birincisi, Gürcüstan bununla heç bir iqtisadi qazanc götürmür. Bizim əsas iqtisadi-ticari əlaqələrimiz Avropa Birliyi, Türkiyə, Azərbaycan və Ukrayna ilədir. Onların da heç birinə abxaz dəmiryolu gərək deyil. Üstəlik, o halda Bakı-Tiflis-Qars dəmir yolunun taleyi sual altına düşəcək. Hərbi-siyasi nöqteyi-nəzərdən isə bu dəmiryolu regionda pozucu rol oynayacaq, həm də ona görə ki, bizim strateji müttəfiqimiz Azərbaycanın maraqları tapdanmış olacaq. Aydındır ki, abxaz dəmiryolunun işə düşməsi Gümrü hərbi bazasının potensialının xeyli güclənməsinə gətirəcək ki, bu da nizamlanmamış Dağlıq Qarabağ problemi şəraitində məqbul deyil. Azərbaycan bizə həmişə kömək edib və heç bir halda onun maraqlarını iqnor eləmək olmaz..."

*****

Yazıdakı arqumentləri sırasına yalnız bunu əlavə etmək qalır: Rusiya prezidenti Vladimir Putinin aprelin 24-də Türkiyəyə - Çanaqqala zəfərinin ildönümü tədbirinə yox, məhz İrəvana səfər etmək qərarı verməsi də Gümrünün, Ermənistanın Kreml üçün artan önəmini bir daha, əyani şəkildə təsdiqləyir.

Onu da xatırladaq ki, 2013-cü ilin dekabrında Putinin Ermənistan səfəri İrəvandan yox, məhz Gümrüdən başlamışdı. O zaman Putin Gümrü hərbi bazasından qonşu ölkələrə açıq təhdid xarakteri daşıyan belə bir bəyanat verməşdi ki, "Rusiya Cənubi Qafqazdan çıxmağa hazırlamır, əksinə..."

**❑ Analitik xidmət**

YENİ MÜSAVAT
N 58 (6086) 16 mart 2015

# Dünyanın gözü müəmmanı çözmək üçün Pitere dikildi

**Rusiya prezidenti Vladimir Putinin "yoxa çıxması" ətrafında son 10 gündə davam edən müəmmalara, nəhayət, bu gün aydınlıq gələ bilər. Kremlin rəsmi məlumatına görə, Rusiya lideri bu gün Qırğızıstan prezidenti Almazbek Atambayevlə Sankt-Peterburqda görüşməlidir.**



# Putin bu gün efirə çıxmasa...

## Rusiya prezidentinin "yoxa çıxması" ətrafında son 10 gündə davam edən şayiələrə, nəhayət, bu gün aydınlıq gələ bilər; məşhur filosof alim Heydər Camaldan sensasion iddialar: "Putin neytrallaşdırılıb və güc strukturlarının nəzarəti altındadır"; yaxın dostu İlham Rəhimov "peşəkar xokkeyçilərlə saat yarım xokkey oynadı" deyir; Kremldə çevriliş olsa, FTX rəhbəri Bortnikovun şansı varmı?

Rusiyanın ən məlumatlı adamlarından biri, Kreml hakimiyyətinə müxalifətdə olan "Exo Moskva" radiosunun baş redaktoru Aleksey Venediktov martın 15-də özünün Tvitter hesabında "hər kəs sakit olsun, 48 saat gözləyin" deyə, mesaj yazıb. Boris Nemtsovun qətlindən sonra ölkəni tərk etdiyi deyilən Venediktov nəyə işarə etdiyini bildirməyib.

Rusiya İslam Komitəsinin sədri, tanınmış filosof alim Heydər Camal isə Putin haqqında sensasion iddialar səsləndirib. Gürcüstan televiziyasına danışan H.Camal deyib ki, "Putin neytrallaşdırılıb və bu və ya digər səviyyədə dövlət çevrilişi həyata keçirmək iqtidarında olan güc strukturlarının nəzarəti altındadır". H.Camal deyib ki, Rusiya prezidentinin bu günə və martın 17-nə təyin edilən görüşləri ilə bağlı xəbərlər yalnız vaxt qazanmaq üçündür və ola bilsin ki, onunla anlaşma əldə etmək üçün danışıqlar aparılır. Politoloq Putinin taleyindən danışarkən onun sağ olduğunu deyib, amma onu Miloşeviç, Qəddafi və Səddamla müqayisə edərək Rusiyada hakimiyyətdə olmağın təhlükəli olduğunu xatırladıb: "Hər halda, I Pyotrdan sonra Rusiya hakimiyyətində yalnız Brejnev və Çernenko öz əcəliylə ölüblər" deyən, H.Camal Putinin də eyni tale ilə üzləşə biləcəyinə işarə edib.

O, ötən ay Rusiya FTX-nin rəhbəri Aleksandr Bortnikovun sensasion ABŞ səfərinə də diqqət çəkib. O, adı Avropa Birliyinin sanksiya siyahısında ön sırada olan şəxsin okeanın o tayına terrorizmlə mübarizə tədbirinə getməsini absurd hesab etdiyini deyib: "Dünyanın gündəmində Rusiya və Ukraynadakı vəziyyət durarkən bu cür müzakirənin olması yalnız səfərin əsas səbəbini gizlətməyə hesablanıb", - deyə o bildirib. H.Camalın fikrincə, FTX rəhbəri vasitəsilə ya Rusiyaya qəti ultimatum verilib, ya da ona elə bir təklif verilib ki, ondan imtina etmək mümkün deyil.



Qeyd edək ki, FTX rəhbəri fevralın 18 və 19-da "Zorakı ekstremizmə qarşı mübarizə" sammitində Rusiya nümayəndə heyətinə rəhbərlik edib. Bortnikovun səfərinə diqqət çəkən dünya nəşrləri "ABŞ - ın Avropa Birliyinin Bortnikova qarşı sanksiyalarına məhəl qoymamasını" qınamışdı. Buna cavab olaraq "Bortnikov AB-nin Ukraynada Rusiya yönlü qiyamçılara dəstəklə bağlı tətbiq etdiyi sanksiyalara məruz qalıb, amma o, ABŞ-ın hər hansı sanksiyasına məruz qalmayıb" deyə, Ağ Ev rəsmisi Psaki bildirmişdi.

Səfər başa çatdıqdan sonra Bortnikov jurnalistlərə bildirib ki, onun Vaşinqtona səfəri həm peşəkar, həm də siyasi xarakter daşıyırdı. "Mənim və həmkarlarımızın malik olduğumuz imkanlardan istifadə etmədən siyasi problemləri həll etmək olmaz. Bu, baş verənlərə müsbət təsir göstərməyin əsasında duran çox mühüm aspektdir" deyə, Bortnikov bildirmişdi. Hələ o zaman da belə bir iddia vardı ki, Bortnikov ABŞ-a Putinin şəxsi nümayəndəsi qismində gedib və Vaşinqtonda ən yüksək səviyyədə məxfi məsləhətləşmələr başlayıb.

***

1994-1995-ci illərdən Rusiya Dövlət Televiziyasında İslam dini barəsində "Nıne" ("İndi") adlı verilişi ilə məşhurlaşan əslən şuşalı olan H.Camal təkcə dini çevrələrdə deyil, siyasi dairələrdə də nüfuzlu şəxs hesab edilir. Kremlə yaxın olmasa da, onun Rusiya kəşfiyyatı ilə əlaqələrinə dair zəif də olsa ehtimallar var. Çünki o, radikal İslam təriqətlərinə qarşıdır və Rusiya müsəlmanlarının çoxluq təşkil etdiyi şiə teoloqu kimi tanınır və qəbul edilir. Onun Putin haqda hətta Kremlin qatı düşmənlərinin ehtiyatlı mövqe sərgilədiyi bir vaxtda bu cür sərt açıqlama ilə çıxış etməsi maraq doğurur.

Burada iki əsas versiya ola bilər: birincisi, Heydər Camal "Putin ətrafı tərəfindən devrilib" deməklə, prezidentin bu gün gözlənilən üzə çıxmasının effektini daha da artırmış olur. Çünki "Putini güc strukturları devirə bilər" iddiası yeni deyil və bu, son günlərdə ən çox səslənən versiyadır.

Heydər Camalın dedikləri ilə bağlı ikinci ehtimal da yenə Putinin yaxın ətrafı ilə bağlıdır. Məlumdur ki, onun Ukrayna siyasəti Rusiyanı təcrid edib və Qərblə qarşıdurma səngimir. Bundan isə elə ən çox əziyyət çəkən də elə Putinin yaxın ətrafı - sanksiyalardan hər gün milyonlar itirən məmur-oliqarxlardır. H.Camalın Putinin ən inanılmış adamlarından biri olan FTX rəhbərinin ABŞ səfərinə diqqət çəkməsi, "imtina edilməyəcək təklif "lə bağlı dedikləri Kremlin Putindən sonra kimlərin əlinə keçə biləcəyinə də işarə sayıla bilər. Yəni "KQB" Putin gedəcəksə, onun yerinə başqa bir kəşfiyyatçı gələcək...

Rusiya prezidentinin təlbəlik dostu, azərbaycanlı iş adamı professor İlham Rəhimov da Putin haqda danışıb. Müsavat.com-a açıqlamasında o deyib ki, prezidentlə bu yaxınlarda görüşüb: "Mən öz gözlərimlə gördüm və şahidiyəm ki, o, buz meydançada peşəkar xokkeyçilərlə saat yarım xokkey oynadı. Saat yarım, peşəkar xokkeyçi kimi! Siz heç bilirsinizmi, xokkey nədir, hansı güc, dözüm və cəsarət tələb edir bu idman növü? Yeri gəlmişkən, həm də yaxşı nəfəs tələb edir. Səmimi deyim ki, təəccübləndim. Mən özüm xokkey oynamıram, amma onu müşahidə etdim ki, o, əla idman formasındadır. Bax, bunun şahidi oldum. Belə şeyləri onun haqda yəqin o adamlar danışır ki, ya ona həsəd aparır, ya da ondan xoşlanmırlar". İ.Rəhimov deyib ki, Putinin İslamı qəbul eləməsi kimi iddiadan daha axmaq bir şey düşünmək çətindir: "Bu, heç lətifə də deyil. Bunu onun düşmənləri uydurub, ortaya atıb".



Putin güc nazirləri ilə: öndə müdafiə naziri Şoyqu, arxasındakı Bortnikovdur

Yeri gəlmişkən, Putinin "yoxa çıxması" və İslamı qəbul etməsi barədə iddiaların da məhz Kremldən hazırlandığı piar olduğu barədə də xəbərlər var. İddialara görə, Putin "birinci şəxs" boşluğu yaradaraq onun getməsini arzulayanlara əslində ölkə üçün kim olduğunun əhəmiyyətini ortaya qoymaq istəyib və etiraf edilir ki, buna nail də olub. İslamı qəbul etməsinə gəlincə, bu da Nemtsovun qatillərinin arxasında "islamçı izi" çıxmasından sonra dövriyyəyə buraxıldı və Putinin dostu Ramzan Kadırov vasitəsilə (Çeçenistan prezidenti öz bloqunda bundan sonra Putinin kafirlərə və münafiqlərə qarşı müharibə aparacağını yazmışdı) daha da hərəkətləndirildi.

Azərbaycan televiziyalarından "Lider" telekanalında deputat Sahib Alıyev müəllif verilişində Putinlə bağlı müəmmadan danışarkən iki maraqlı tezisi qabardıb. "Lider" şərhçisinin fikrincə, Putinin İslamı qəbul etməsi barədə deyilənlər Nemtsovun qətlindən sonra islamçıların Kremlə mümkün qəzəbini yumşaltmaq məqsədi ilə ortaya atılmış ola bilər. Hökumət kanalı Putinin güclü lider olduğunu deyərək Qərb çevrələrinin onu devirmək istəyini xatırladıb və Rusiya prezidentinə müxalifət olanları "lidercik" adlandıraraq Kreml sahibinə tam dəstəyini ifadə edib.

***

Putin-today.ru saytı martın 15-də Putin haqda bir neçə yeni xəbər yayıb. Prezidentin mətbuat katibi Dmitri Peskov martın 15-də Bakı vaxtilə saat 23:00-da "Rossiya-1" kanalında "Krım. Vətənə yol" sənədli filminin nümayişi haqda danışıb. Peskov deyib ki, filmdə prezidentin iki müsahibəsi yayımlanacaq. Bu müsahibədə Putin Ukraynanın devrilmiş prezidenti Viktor Yanukoviçin necə xilas edilməsinin təfərrüatlarından da danışacaq: "Prezident filmin ümumi süjeti haqda məlumatlıdır. Amma o da bütün rusiyalı tamaşaçılar kimi filmə bu gün(martın 15-də) baxacaq" deyə, Peskov bildirib. Sayt martın 15-də vəfat edən Rusiyanın tanınmış yazıçısı Valentin Rasputinin ailəsinə prezident adından yaydığı başsağlığını da dərc edib. Putin həmçinin Rusiya Elmlər Akademiyasının vitse-prezidenti Jores Alfyorovu 85 illik yubileyini təbrik edib.

Prezidentin gündəlik iş rejimini və fəaliyyətini işıqlandıran yeganə sayt ("putin-bu gün") Putinin sonuncu sərəncamını martın 13-də imzaladığını xəbər verir. Xəbərdə bildirilir ki, Putin baş nazirə Milli məsələlər üzrə Federal Agentlik yaratmaqla bağlı tapşırıq verib.

Xatırladaq ki, Putinin haqqında müəmma martın 6-dan başlayıb. O, martın 5-də İtaliyanın baş naziri Matteo Rentsi ilə görüşüb. Bundan sonra Kreml Putinin 8 mart münasibətilə qadınlarla görüşməsinə dair məlumat yayıb. Lakin görüş iştirakçılarından birinin məlumatına görə, əslində bu görüş də martın 5-də keçirilib. Putinin yorğun olduğu görüş iştirakçılarının gözündən yayınmayıb. Putinin martın 12-13-də Astanaya planlaşdırılan səfərinin açıqlanmayan səbəbdən təxirə salınması şayiələri daha da artırıb.

Kreml rəhbərinin məmurları ilə sonrakı görüşlərində mətbuat iştirak etməyib. Məlumata görə, bir sıra regionların qubernatorları ilə görüşlər əslində mətbuata açıqlanan vaxtdan bir neçə gün əvvəl keçirilib. Putinlə bağlı ən son süjet martın 13-də Ali Məhkəmə sədri Vyaçeslav Lebedevlə görüşdən olub. Görüşün prezidentin Moskva vilayətindəki iqamətgahında baş tutduğu xəbər verilib. Amma bu da inandırıcı görünməyib və şayiələri daha da artırıb.

***

İndi bütün diqqət Putinin bu gün Piterdə gözlənilən görüşünə dikilib. Prezident bu gün efirdə yayılan şayiələrə də nöqtə qoya bilər. Amma...çıxmasa necə?

Gözləyək...

❑ **Xəbər xidməti**



# Toy-yas mafiyasının qələbəsi

**Samir SARI**

**Dünən toydaydıq, məclisə baxdım, yadıma düşdü. Ötən ilin sentyabr ayı idi, qəfildən, obrazlı desək, aydın səmada şimşək çaxdı, mediada xəbərlər dolaşmağa başladı ki, toy və hüzr məclislərində israfçılıq halları ərşə dirənib, hökumət bu işdən narazıdır və tədbir görəcək.**

Mövzu göydə götürldü, saytlar, qəzetlər, agentliklər, bloggerlər - hamı döşənib bu barədə yazmağa başladı. Söhbətə ziyalılar, deputatlar da qarışdı.

Məlum oldu ki, hamının ürəyi doluymuş, hüzr və toy məclislərindəki təmtəraq, təntənə, mənasız israfçılıq hər kəsin yaralı yeriymiş.

Bu xüsusda yazıldıqca yazıldı və ortaya çox eybəcər bir mənzərə çıxdı: hər kəs toy və hüzr məclislərinin bu cür “pul-göstərmə yarışı”na çevrilməsindən narazıdır, amma heç kəs də özünə gələndə bu ənənəvi prosedurlardan imtina etmir.

Bunun da sirri tezliklə çözüldü. Ortaya çıxdı ki, toyxana və yasxana işlədən sahibkarlar öz menyularını, qiymətlərini və ayinlərini diktə edirlər və bununla razılaşmamaq mümkün deyil. Heç kim istəmir ki, hər kəs üçün ömürdə bir dəfə olan toy (eləcə də yas) məclisi urvatsız olsun.

Bu söhbət çox böyüdü, yoğunladı, şadlıq evi və yasxana işlədənlərin mafioz elan edilməsinə qədər yekəldi.

İndi hökumət məcbur idi ki, mafiozlarla mübarizə aparsın. Komissar Kattani lazım idi, tapılmırdı. Arada Din Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bu funksiyanı öz üzərinə götürdü, amma onun da gücü yalnız hüzr məclislərinə çatdı. Hərçənd hüzr məclisləri ilə müqayisədə toylarda israfçılıq halları 10 dəfə artıq idi.

Ağzımızda mafiya deyirik. Xoşbəxtlikdənmi, bədbəxtlikdənmi, araya məhərrəmlik düşdü, toylarda iki aylıq fasilə əmələ gəldi, toy səsi də kəsildi, istər-istəməz müzakirəsi də. Səfər ayı bitəndən sonra toylar qaldığı yerdən davam etməyə başladı - həmin təmtəraq, həmin menyu, həmin, masalar, həmin qiymətlərE

Yeni toy mövsümündə qismət olub, bir neçə toyda iştirak etmişik, heç bir fərq yoxdur. Hətta dünən diqqət etdim ki, toy menyusu bir az da zənginləşib. Salatların çeşidi artıb, kolbasaların növü çoxalıb, ağ və sarı pendirin böyründə motal pendiri də yer alıb. Spirtli və spirtsiz işkilərin sayında və növündə də artım var. Əvvəllər süfrəyə verilən totuq broiler toyuğunu isə “kənd toyuğu” kimi sırınan arıq broyler toyuğu əvəz edib.

Başqa sözlə, yenə hər bir şəxsə 3-4 qarınlıq yemək təklif edilir. Yeyib-içən kişilər bu qədər yükün öhdəsindən birtəhər gəlsələr də, qadınlar əzmlə mübarizə aparır, normadan artıq yeməməyə çalışırlar, nəticədə hər toyda yüz çadırlıq suriyalı qaçqınları doyuracaq qədər yemək-içmək artıq qalır.

Baxırsan ki, israfçılığa qarşı kampaniya söz imiş, dəyirman və onu işlədən mafiozlar öz işindədir. Təmtəraqlı toy industriyasına heç kəs bata bilməz. Onlar qonaqlara təklif etdikləri yemək və içki çeşidlərini də artıracaqlar, qiymətləri də. Biz də növbə ilə bir-birimizin, dostların, qohum-əqrəbanın pulunu toplayacaq, aparıb onlara verəcəyik. Beləcə, “ömürdə bir dəfə olan məclis” üçün insanların növbə ilə soyulması prosesi davam edəcək.

Neçə illərdir, beləydi, indi də belədir. Bəs ötən ilin sentyabrında o nəydi, nə haqq-hesabıydı? Camaatın başına niyə oyun açdılar? Şəmkidə, Lənkəranda, İmişlidə ahıl ataları vəfat etmiş oğulların ehsanı nəyə görə teştdə, qazanda qalmalıydı?

Budur, Google-də axtarış vermişəm, qarşıma belə bir xəbər çıxıb: “Lənkəranda kütləvi ehsan yığışdırıldı”. Yazının içini oxuyursan, yazılır: “Lənkəran Şəhər İcra Hakimiyyətinin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Əlimərdan Əliyev ehsan mərasimlərində israfçılığın aradan qaldırılması məqsədilə görülən tədbirlərdən danışıb”.

Nə oldu o tədbirlər, davam edirmi, Əlimərdan müəllim? Bildiyimə görə, etmir. Toylarda olduğu kimi, yaslarda da camaat yenə köhnə ehsan menyusuna qayıdıb.

Ara yerdə hər kənddə, qəsəbədə hüzrü o kampaniyaya düşən neçə adam əzizinə ehsan verə bilməməsinin dərdini (bəlkə də töhmətini) daşıyır.

# Şəmkirli iş adamından Aslan Aslanova yeni ittihamlar

## Elpərəst Həsənli: “Dediklərimin üstündə dayanıram”



Elpərəst Həsənli



Aslan Aslanov

### “Aslan Aslanov Quşqarada özünə güllə atdırdı ki...”

### “Kimin adını çəkirəmsə, qaçır onun üstünə, polis qardaşını göndərir ki...”

**“Mən demişəm, dediklərimin üstündə də dayanıram. O adamların ölümündə Aslan Aslanovun əli var. Məni məhz cinayətləri haqda danışdığım üçün həbs etdirmişdi. İstəmirdi ki, iç üzü ortaya çıxsın”. Bu sözləri redaksiyamıza müraciət edən Elpərəst Həsənli deyib.**

Bildirib ki, onun fikirləri “Yeni Müsavat”da dərc ediləndən sonra Aslan Aslanov hərəkətə keçib: “Gədəbəy batalyonunun komandiri olmuş Cahangir Rüstəmovun, general-mayor Fikrət Məmmədovun və başqalarının ölümü ilə bağlı dediklərimi araşdırsınlar. Böhtan atıramsa, cəzamı çəkməyə hazıram. Açsınlar Fikrət Məmmədovun qəbrini, dediklərimi yoxlasınlar. Aslan Aslanov vəzifədə idi, arxasında Səfər Əbiyev dayanmışdı. İndi ki, vəzifədə deyil, indi araşdırsınlar. Onda görəcəklər ki, Aslan Aslanovla Səfər Əbiyev vəzifədə qalmaq üçün hansı oyunlardan çıxıblar. Əgər Fikrət Məmmədov sağ qalsaydı, o, müdafiə naziri olacaqdı. Cahangir Rüstəmov da onun dediyi ilə oturub durmurdu, əsl zabit idi. Onu da aradan götürdülər. Dediyim odur ki, araşdırsınlar, görəcəklər ki, bu işlərin arxasından Aslan Aslanov çıxacaq”.

E.Həsənli A.Aslanovun hərbi qorumaya alınmaq üçün atdığı bir addımı da diqqətə çatdırdı: “Aslan Aslanov özünü ölkə rəhbərliyinə əzab çəkən biri kimi göstərmək istəyirdi. Bunun üçün min oyundan çıxırdı. Oğlunun qətlinin motivini də elə buna görə dəyişdirməyə çalışırdı. Bilirdi ki, namus məsələsi olsa, ona deyəcəklər ki, oğlunu tərbiyə edə bilmirdin? Özünü də vəzifədən çıxaracaqdılar. Aslan vəzifədə qalmaq üçün nə desən, onu edərdi. Təki vəzifədə qalsın. O vaxt Şəmkirdə başçı olanda özünə güllə atdırmağı da vəzifə hərisliyindən idi. Gəncə yolunda Quşqara kəndi ərazisində dəmiryol keçidi var, orada maşınını güllələtdirmişdi. Özü və sürücüsü maşından düşmüşdülər, maşını Səfər Əbiyevlə Bakıdan gələn hərbçi gülləboran eləmişdi. O hərbçi həmin gün səhər Səfər Əbiyevlə birgə Bakıdan gəlib Şəmkirdə yerləşmişdilər. Ona əvvəlcədən aparıb maşını güllələyəcəyi yeri də göstərmişdilər. Maşında 19 güllə yeri vardı. Əgər Aslan və sürücüsü həmin vaxt maşında olsaydılar, nə o, nə də sürücüsü sağ qalmazdı. Bunun da qolundan özləri vurmuşdular. Güllə sümüyünə dəymədən ətindən keçmişdi. Bu tamaşanı ona görə qurmuşdu ki, ölkə rəhbərliyi buna dəyməsin. Üstəlik, Səfər Əbiyev də ona hərbçilərdən ibarət dəstə ayırsın. O tamaşadan sonra Səfər Əbiyev ona 10 hərbçidən ibarət mühafizə ayırdı. Hara gedirdisə, həmin hərbçilər Aslanın ətrafında dolaşırdı. O qədər adamın pulunu alıb yalançı vədlər vermişdi ki, küçədə gəzməyə də qorxurdu. Aslan belə işlərlə pul qazanıb”.

E.Həsənli bir məsələyə də diqqət çəkdi: “Mən danışıram, kimin adını çəkirəmsə, qaçır onun üstünə, polis qardaşını göndərir ki, amanın günüdür, qoymayın, Elpərəst danışdı. Məni adlarını çəkdiyim adamların qohumlarına əsəbləri pozulmuş biri kimi təqdim edir. Mən haqqı dediyim üçün Aslan vəzifədə olduğu vaxt tutdurdu. Başımdan, qabırğamdan, ayağımdan taxta çəkiclə Bayıl türməsində vurdurub, zəhər verdirib. Baş Prokurorluqdan qrup gəlsin, araşdırsın, görsünlər ki, dediklərim həqiqətdir. Mən onun narkotiklə bağlı işlərini də açıb deyəcəyəm. Aslan elə bilməsin ki, Gürcüstanlı qubernator Mamaladze ilə nə oyunlardan çıxdığı haqda məlumatım yoxdur. O qubernator axtarışda olanda onu Aslan gizlədirdi”.

Yada salaq ki, Lamiyə Quliyevanın məhbəsdə ana olması ictimailəşəndən sonra Şəmkirdə baş vermiş və illərlə araşdırılmayan bir çox cinayətlər haqda bilgilər ortaya çıxıb. E.Həsənli illərlə dövlət orqanlarına hazırda dilə gətirdikləri haqda şikayətlər yazıb. Amma müvafiq araşdırma aparılmayıb...

**❑ E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Yazıda adı keçən hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Vidadi İsgəndərli Vergilər Nazirliyindən məktub alıb

## Hüquq müdafiəçisi odlu silahla hədələnmə ilə bağlı dövlət orqanlarına müraciət edib

**“Demokratiyanın Müdafiəsinə Kömək” İctimai Birliyinin sədri, hüquq müdafiəçisi Vidadi İsgəndərli Vergilər Nazirliyindən məktub alıb.**



V.İsgəndərli “Yeni Müsavat”a açıqlamasında deyib ki, vergilər nazirinin müşaviri İlqar Əhmədovun imzaladığı məktubda onun bir müddət öncə nazirliyə yazdığı müraciətinə cavab verilib: “Mən ”Modern servis" MMC və "Ruslan tikinti demontaj” MMC-də baş verənlərin yoxlanması üçün bir çox dövlət qurumlarına, Vergilər Nazirliyinə müraciət etmişəm. Çingiz Səlimovun MMC-lərində rüşvət və korrupsiya, vergidən yayınma hallarının olduğunu vurğulamışam. Müraciətlərimə cavablar almışam. Vergilər Nazirliyindən aldığım cavabda qeyd edilir ki, Çingiz Səlimovun MMC-lərində vergidən yayınma halları ilə bağlı səyyar vergi yoxlaması keçiriləcək. Nəticəsi haqda məlumat verəcəklərini də qeyd ediblər".

V.İsgəndərli Ç.Səlimovun əmlak məsələləri üzrə dövlət komitəsinin rəhbəri Kərəm Həsənova və onun deputat qardaşı Malik Həsənova güvənərək qanunsuzluqlara yol verdiyini söyləyib. Qeyd edib ki, Potu kənd sakini Ağalar Səlimovun müraciətindən sonra bu məsələnin araşdırılmasına başlayıb: “Çingiz Səlimov öz yaxını olan iş adamı Ağalar Səlimova qarşı dələduzluq edib. Bu adamlar centelmen razılaşması əsasında Göyçay rayonunda "Göy Göl" istirahət mərkəzi tikiblər. İstirahət mərkəzinin tikintisinə Ağalar Səlimova da məxsus vəsaitlər sərf edilib. İndi Ağalar Səlimov həmin vəsaiti geri istəsə də, Çingiz Səlimov vermir. Ağalar Səlimov deyir ki, Çingiz Səlimov istirahət mərkəzinin tikintisinə dövlətdən taladığı pulları da sərf edib. Qoy dövlət orqanları məsələni araşdırsınlar. Söhbət böyük-böyük zavodların, binaların sökülməsindən, avadanlıqların mənimsənilməsindən gedir. Dövlətin pulunu yeyiblərsə, dövlət bu məsələni araşdırmalı, hüquqi qiymət verilməsinə nail olmalıdır. Mən məsələ ilə bağlı Göyçay Rayon Prokurorluğuna müraciət etmişəm. Təəssüf ki, prokurorluq məsələni səthi araşdırıb və işə xitam verib. Üstəlik Ağalar Səlimovu da həbslə hədələyiblər. Mən Göyçay rayon prokuroru Muxtar Eminova bildirdim ki, "Modern servis" firmasının fəaliyyətində külli miqdarda dövlət vəsaitinin mənimsənilməsinə dair faktlar var. Korrupsiya və rüşvət faktlarının araşdırılması isə Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin səlahiyyətinə daxildir. Bu barədə Baş Prokurorluğa və Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə də müraciət etmişəm. Lakin faktlar araşdırılmadan işə xitam verilib".

Hüquq müdafiəçisi deyib ki, prokuror ona hədə-qorxu gəlib: “Dedi ki, faktları sizin əleyhinizə çevirərəm. İşə xitam veriləndən sonra Çingiz Səlimov digər qardaşı Əbülfəz Səlimovla birgə mənimlə görüşdü. Onlar dedilər ki, bu işə qarışmayım. Həmçinin bildirdilər ki, bu işi ört-basdır etmək üçün əllərindən gələni edəcəklər. Hətta məni ölümlə hədələdilər. Açığı, mən bu hədə-qorxuya əhəmiyyət vermədim. Amma sonradan mənə bəlli oldu ki, bu şəxsdə avtomat silah var. Həmçinin aydın oldu ki, bu şəxs ”Göy Göl" İstirahət Mərkəzinin icarədarları Ehtiram Novruzəliyevin və Novruz Babayevin üstünə silah çəkib. Məsələ ilə bağlı prezident İlham Əliyevə, milli təhlükəsizlik naziri Eldar Mahmudova, baş prokuror Zakir Qaralova dəfələrlə müraciət etmişəm".

**❑ E.HÜSEYNOV**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Ötən həftə Dağlıq Qarabağ məsələsi ətrafında müəyyən siyasi-diplomatik fəallıqla yadda qaldı. Öncə Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ üzrə xüsusi məruzəçisi Robert Valter Azərbaycana səfər etdi. Məruzəçi ölkə rəsmiləri ilə, Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndələri və köçkünlərlə görüşdü, problemin mahiyyəti ilə bağlı əlavə bilgilər aldı.**
**Ümid edək ki, cənab Valterin hazırlayacağı hesabat konfliktin ədalətli həllinə öz layiqli töhfəsini verəcək. Ümumiyyətlə, Azərbaycan üçün çox pozitiv haldır ki, AŞPA problemin yoluna qoyulmasında fəal iştirak eləmək istəyir.**



# ABŞ səfirinin ilk Qarabağ mesajı kimə ünvanlanıb?

## "Problemin yoluna qoyulması üçün Bakı ilə İrəvanın siyasi iradəsi lazımdır", ancaq Ermənistanın olmayan iradəsi məsələdə necə həlledici ola bilər? Münaqişənin çözümü çoxdan təkcə tərəflərin üzərinə düşmür...

Nəzərə alsaq ki, Avropa Şurasının Ermənistanı işğalçı dövlət kimi tanıyan qətnaməsi var, üstəgəl britaniyalı məruzəçi məsələyə yanaşmada, Azərbaycana münasibətdə yetərincə obyektiv mövqeli şəxs kimi tanınır, o zaman erməni tərəfinin onun səfəri ilə bağlı ciddi narahatlıq keçirməsi başa düşüləndir.

Məsələ ondadır ki, məruzə əsasında qurumun daha bir sənədinin qəbul ediləcəyi istisna deyil. Erməni işğalı ilə bağlı növbəti obyektiv sənədin ortaya çıxması isə Ermənistana, təbii ki, sərf eləmir. İrəvan prosesin müstəsna olaraq ATƏT-in Minsk Qrupunun üç həmsədrləri səviyyəsində davam etməsində maraqlıdır. Çünki Avropa Şurasından, Avropa Parlamentindən fərqli olaraq həmsədr dövlətlər - Rusiya, ABŞ və Fransa bu və ya digər dərəcədə təcavüzkara loyal yanaşır, Ermənistanı işğalçı adlandırmırlar. 3-cü onillikdir münaqişənin həllində heç bir irəliləyişin olmamasının əsas səbəbi də əslində elə budur - işğalçı ilə işğala məruz qalan tərəfə bərabər gözlə baxılması, guya Dağlıq Qarabağın mübahisəli ərazi olması.

Doğrudur, AŞPA Rusiyadan fərqli olaraq Ermənistana hansısa formada sanksiyalar tətbiq etməyib - baxmayaraq ki, artıq qeyd edildiyi kimi, Ermənistanı Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmağa çağıran qətnamə qəbul edib - bununla belə, məruzəçinin fəaliyyəti də daxil, Strasburqun problemin nizamlanmasında səmimi şəkildə irəliləyiş olmasına səy etməsi təqdir edilməyə bilməz.

*****

Ötən həftəsonu, nəhayət, ABŞ-ın Azərbaycandakı yeni səfiri Robert Sekuta Qarabağdan danışdı. "ABŞ Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Minsk Qrupunun səylərini dəstəkləyir". Bunu o, jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, Minsk Qrupu vacib formatdır və münaqişənin həlli tərəflərin üzərinə düşür: "Problemin öz həllini tapması üçün tərəflərin siyasi iradəsi olmalıdır. ABŞ öz növbəsində Minsk Qrupu çərçivəsində prosesləri dəstəkləməkdə davam edəcək".

İlk baxışda şablon yanaşmadır. Çünki diplomat öz sələfləri kimi klassik bir mövqe ortaya qoyub. Ancaq çətin ki, bu cür çağırışlarla Ermənistan daşı ətəyindən töküb danışıqlarda konstruktiv mövqe tutsun. Ona görə ki, o, özbaşına deyil, arxasında Rusiya var - həmsədr Rusiya, vasitəçi Rusiya, guya münaqişə tərəflərinə eyni gözlə baxan, hətta Ermənistana da, Azərbaycana da silah verən Rusiya.

*****

Bu arada Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan Sloveniyanın "Dnevnik" qəzetinə verdiyi müsahibəsində Rusiyanın məhz Azərbaycana silah satmasından ölkəsinin əndişə keçirdiyini söyləyib (anspress). Erməni nazir növbəti dəfə saxtakarlığa əl ataraq, dünya ictimaiyyətini çaşdırmağa səy edib, Ermənistanı sudan quru çıxarmağa çalışıb: "Biz münaqişənin nizama salınması məsələsində Minsk Qrupunun həmsədrləri tərəfindən ifadə edilmiş mövqeyi dəstəkləyirik. Münaqişənin həllinə dair həmsədr ölkələrin - Rusiya, ABŞ və Fransanın mövqeyi bu ölkələrin prezidentləri tərəfindən verilmiş 5 bəyanatda əksini tapıb. Bizim mövqeyimiz həmsədrlərin təkliflərinə uyğundur. Biz həmin 5 bəyanatı müsbət qarşılayırıq və bildiririk ki, onların tərəfindən təklif edilmiş üç prinsip və beynəlxalq hüququn elementi əsasında həll yoluna hazırıq".



Robert Sekuta

Nalbəndyan Qarabağ konfliktinin nizama salınması üzrə aparılan danışıqların indiki mərhələsinə toxunub, "Qafqazda ərazi mübahisəsinin nizamlanması qüdrətli dövlətlərin maraqlarına daxildirmi" sualına cavabında isə əsl yaltaqlıq nümayiş etdirib: "Düşünmürəm ki, biz, kiçik ölkələr böyük dövlətləri ittiham etməliyik. Son 6 ildə üç ölkənin vasitəçiləri çox səy göstərdilər, təqribən 20 sammit, nazirlər səviyyəsində 10 görüş təşkil etdilər və regiona bir neçə dəfə səfərə gəldilər".

Ermənistan XİN başçısı növbəti dəfə sərsəmləyərək söyləyib ki, guya Azərbaycan həmsədrlər tərəfindən verilən təkliflər əsasında münaqişənin həll prinsipinə qarşı çıxır, "Bakı etibarın möhkəmləndirilməsi, münaqişənin həlli ilə bağlı bütün təklifləri rədd edir". O, münaqişənin hərbi yolla həllində Azərbaycandan çəkindiklərini, Azərbaycanın hərtərəfli güclü olduğunu da etiraf edib: "Əgər energetika resurslarını, neft və qazı nəzərə almasaq belə, Azərbaycan daha güclüdür. Təbii ki, belə olan halda Azərbaycan öz gücü ilə lovğalanır".

Onun məntiqinə görə, müharibəni təbliğ edən ölkə dünyada güclü ola bilməz: "Azərbaycan 10 ildə hərbi büdcəsini təqribən 30 dəfə artırıb, davakar ritorikasını amansızlaşdırıb, nifrət təbliğatını genişləndirib və daim güc tətbiq etməklə bizi hədələyir".

E.Nalbandyan sonda "aciz diplomatiya" yürüdüb, üstüörtülü şəkildə İrəvana mesaj verərək, həmsədrlərə yalvarış edib: "Bütün müharibələrdən sonra tərəflər ən pis şərtlərlə də olsa, danışıqlar masasına qayıtmalıdır. Bizim üç həmsədrlə birlikdə danışıqları davam etdirmək imkanımız var. Beynəlxalq ictimaiyyətin təkliflərinə əsasən həll prosesinin irəliləyişi üçün bu imkandan niyə istifadə etməyək?!"

*****

Ancaq 20 ildən çox aparılan səmərəsiz danışıqları davam etdirməyə dəyərmi? Nə qədər ki, təcavüzkarla təcavüzə məruz qalan ölkə arasında bərabərlik işarəsi qoyulacaq, təcavüzkar da maksilmalist tərəfindən əl çəkməyəcək.

O ki qaldı amerikalı səfirin toxunduğu "Problemin öz həllini tapması üçün tərəflərin siyasi iradə göstərməsi" məsələsinə, yəqin cənab Sekuta unudub ki, münaqişə tərəflərindən olan Ermənistan çoxdan müstəqil iradə yiyəsi deyil və ipi Kremlin əlindədir. Odur ki, bu iradəni məhz Moskva nümayiş etdirməlidir.

## "Ermənistan saxta soyqırımdan öz işğalçılığını ört-basdır etmək üçün yararlanır"

### ABŞ-dakı səfirimiz: "Türkiyə və Azərbaycansız regionda hər hansı strateji layihə mümkün deyil..."



Elin Süleymanov

**Türk Amerikan Assosiasiyalarının Assambleyası martın 13-14-də Vaşinqtonda konfrans təşkil edib. İki günlük konfransda Türkiyə və ABŞ rəsmiləri, Birləşmiş Ştatlardakı bir sıra türk təşkilatlarının təmsilçiləri, yerli elm xadimləri və tədqiqatçılar məruzələrlə çıxış ediblər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Baş nazir Əhməd Davudoğlu və xarici işlər naziri Mövlud Çavuşoğlu tərəfindən konfrans iştirakçılarına yazılı müraciətlər ünvanlanıb.**

Konfransın martın 14-də keçirilmiş sessiyalarının əsas qonaqları arasında Türkiyənin ABŞ-dakı səfiri Sərdar Kılıc ilə yanaşı, Azərbaycan səfiri Elin Süleymanov da olub. Elin Süleymanov məruzə ilə çıxış edərək müasir Türkiyənin beynəlxalq aləmdəki mövqeləri barədə danışıb və bu ölkəni regionda əvəzolunmaz tərəfdaş kimi xarakterizə edib.

Səfir Türkiyə və Azərbaycanın iştirakı olmadan regionda hər hansı strateji layihənin uğur qazanmasının qeyri-mümkün olduğunu söyləyib. Səfir, eyni zamanda, Azərbaycanın regionda oynadığı strateji rol barədə söhbət açıb və ölkələrimiz arasında sarsılmaz bağların olduğunu vurğulayıb.

Diplomat Türkiyənin ölkəmizə verdiyi dəstəyin, xüsusilə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə cavab olaraq rəsmi Ankaranın tutduğu ədalətli və qəti mövqenin yüksək qiymətləndirildiyini vurğulayıb. O, Qarabağda müharibə cinayətləri, xüsusilə Azərbaycan xalqına qarşı Xocalı soyqırımının törədilməsində əli olan Ermənistanın keçmiş və hazırkı rəhbərliyinin 1915-ci il hadisələri ilə əlaqədar Türkiyəyə qarşı irəli sürdüyü iddiaların tamamilə uydurma olduğunu vurğulayıb. Bildirib ki, erməni lobbisinin dəstəyi ilə Türkiyəyə münasibətdə irəli sürülən bu böhtanlar türk kimliyini alçaltmağa yönəlmiş rəzillikdən başqa bir şey deyil. Səfir Ermənistanın Türkiyəyə münasibətdə bu əsassız iddialarının Azərbaycana qarşı apardığı işğalçı siyasəti ört-basdır etmək üçün istifadə etdiyini söyləyib.

E.Süleymanov əlavə edib ki, Ermənistan rəhbərliyinin yürütdüyü düşmənçilik siyasəti bu ölkənin real müstəqillik və suverenlikdən məhrum olması ilə nəticələnib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 58 (6086) 16 mart 2015



# Adam çəkən "təmiz tərəzi" və Leylandra ağacı

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Maraq üçün yolumu yeni açılmış kənd təsərrüfatı məhsullarının yarmarkasından saldım. Nazir Heydər Əsədovun bir gün əvvəl baş çəkdiyi, "ucuz, keyfiyyətli məhsul"un ünvanı kimi xarakterizə elədiyi 9 Novruz yarmarkasından birinə.**

Əslində bazarı elə yolun ortasında tikiblər - Milli Qəhrəman Məzahir Rüstəmovun adını daşıyan küçədə. Axı əvvəllər yarmarkanın açıldığı ünvanda indi 9 mərtəbə ucalır. Nə isə, təki bazar olsun...

Yarmarkaya təzə girmişdim ki, kimsə narazı-narazı "bazarda burdan ucuzdur ki" dedi. Özüm də müşahidə elədim. Meyvədən tutmuş yoqurta (?) qədər hər şey baha. Yalnız mal (5,50 manat) və qoyun əti (6,50 manata) ucuz idi. Qəssablar 8-10 manata satılan əti burda niyə ucuz satırlar deyə, hər kəs şübhəlidir. Ancaq elə ətə gözucu baxanda adam dünyaya gəldiyinə peşman olur. Qəssab and-aman edir, "Öz həyətimin danasıdır" deyir, ancaq kimdir inanan?

Deməli, təkcə yarmarka nümunəsində biz toplum olaraq bir-birimizi aldadırıq, məmurlu, satıcı-alıcılı hamımız bir-birimizə atırıq. Bu yandan da sallaqxanaların ləğvinə hazırlıqlar gedir. Əti bir mərkəzdə kəsib paylayacaqlar. İlk baxışda normaldır, hər səhər məktəbli uşaqların gözü qarşısında bağıra-bağıra kəsilən heyvanların küçələrə axıdılan qanını müşahidə etməkdənsə, bəlkə də yeni qayda yaxşıdır. Ancaq bizi kim inandıra bilər ki, quzu əti əvəzinə, keçi, dana əvəzinə at-eşşək ətini satışa buraxmayacaqlar? Axı dəfələrlə belə faktlar aşkarlanıb.

Eyyub Hüseynov neçə müddətdir haray salır ki, xaricdən ölkəyə geni dəyişdirilmiş məhsullar daşınır. Ancaq nə olsun? Qida təhlükəsizliyi deyilən bir şey yoxdur. Nəticəsi də... Məlum olub ki, Azərbaycanda xərçəngli xəstələrin sayı xeyli artıb.

İndi kimə inanasan? Yanacaqdoldurma məntəqəsindən çıxan sürücü əmindir ki, onun benzinindən kəsiblər, vətəndaş şübhə eləmir ki, yol təmirinə, bina tikintisinə ayrılan pulların böyük hissəsi yeyilir. Guya həkimə, dərmana inam qalıbmı? Eyni vaxtda üç klinikada analiz ver, görəcəksən hərəsi bir cavab yazıb, üç həkimə müraciət elə, hər birisinin resepti fərqli olacaq, hərəsi bir firmanı məsləhət görəcək. Ona görə də adamlar xaricə üz tutur. Təhsilimizdəki etimadsızlıq da TQDK-nın nəticələrində özünü göstərir.

İnamsızlıq bizi beləcə məhv edir. Əslində vətəndaşların hətta ən ciddi məsələlərə belə laqeyd münasibəti də inamsızlıqdan irəli gəlir. Çox zaman eşidirik, deyirlər camaat nə iqtidara, nə müxalifətə inanır. İqtidar müxalifətin "xarici qüvvələrə" işlədiyini, müxalifət isə hökumətin xalqı düşünmədiyini iddia edir. Yenə inamsızlıq. Üz-üzə oturub danışsalar da, bir-birinə etibar etmirlər, inanmırlar.

Bu, fəlakətli vəziyyətdir. İnamsızlıq cəmiyyəti məhvə sürükləyir. İntiharların statistikasının artması təkcə bank faizlərinin ağır olması deyil, həm də qarşılıqlı inamsızlıqdır. Adam hər yerdən, hər kəsdən əlini üzəndən, inamını büsbütün dəfn edəndən sonra kəndiri boğazına keçirir.

Özümüzə hərdən tənqidi yanaşmağı da bacarmalıyıq. On illər boyu tarixi qəhrəmanlarla qürrələnib "bizdən böyük yoxdur" demişik. Ancaq qüsurlarımız ört-basdır etmək uğurlu seçim deyil. Görün, biz nə kökdəyik ki, hətta metro girişlərində, parklarda adamların öz çəkisini bilməsi üçün qoyulan tərəzilərin də üstünə "təmiz çəki" yazıb müştəri gözləyənlər var. O qədər inamsızlıq yaranıb ki, adamlar üstünə çıxdıqları tərəzinin də düzgün çəkdiyinə şübhə edir.

Yazqabağı yenə ağacəkmə kampaniyasına başlayıblar. Hektarlarla ərazidə "ekologiyanın qorunması" "təbiətə qayğı" adı ilə hətta Avropadan gətirilən ağaclar əkib şəkillər çəkdirirlər. Ancaq adamın gözünün qabağına dərhal balaca padşahların fərmanı ilə məhv edilən yaşıllıqlar gəlir. Dünənə qədər meşəlik olan ərazilərdə indi binalar ucalır, marketlər tikilir. Adam düşünür ki, İtaliyadan Leylandra ağacını gətirib Bakıda əkməkdənsə, elə paytaxtın yaşıllıq massivlərini qorumaq daha faydalı olmazdımı? Bu da "insan yaşıllıq salır" nağılıdır.

Ümumilikdə hamı aldatmaqla məşğuldur. "Kimə ataq, irəli düşək" deyimi aktualdır. Ona görə də cəmiyyətdə ironiya, saxta təbəssümlər, inamsızlıq, süstlük üstünlük təşkil edir.

Ən təhlükəlisi odur ki, bu gedişlə biz Allah eləməmiş, Qarabağa dönməyə olan inamımızı da itirə bilərik. Deməyin ki, yarmarkadan, qəssabxanadan gəlib Qarabağa çıxdı. İrili-xırdalı bütün problemlər bizimdir və onların həlli üçün nələrsə etməliyik.

# Bayram gəldi, vağzallarda bilet yenə qəhətə çıxdı...

## Dəmiryol vağzalında kupe-vaqonlara bilet qurtarıb, satışda bilet yoxdur; avtovağzalda isə həmişəki rüsvayçılıqdır...

**Bayramqabağı vağzallarda ənənəvi olaraq sıxlıq müşahidə olunur. Hər bayram ərəfəsində yaranan ajiotaj bu Novruz günlərində də fərqlənməyib. Bakı vağzallarında basabas, izdiham yaranıb. Bölgələrə gedən sərnişinlər martın 9-dan etibarən kassaların qarşısına axışır. Əsasən də Bakı dəmiryol vağzalında bilet qırğını gedir. Artıq ölkədaxili istiqamətdə qatarların kupesinə satışda bilet qalmayıb. Bunu ötən gün dəmiryol vağzalında olarkən kassalardan bildirdilər.**

Xəzinədarlar bayrama bir gün qalmış vağzala baş çəkməyi məsləhət görürlər və qismət olarsa, yeni kupe-vaqonlar qoşula bilər, o halda bilet tapmaq mümkün olar. Kassirlər bu məsləhəti ötəri deyirlər. Reallıq odur ki, bayrama bir həftə qalmış artıq kupe-vaqonlara bilet satılıb.

Sərnişinlərin martın 8-i və 9-u günlərində vağzala axışaraq kassalardan kupeyə bilet aldığını deyən xəzinədarlar bildirirlər ki, yalnız plaskartla getmək olar. Amma plaskart-vaqonlara da biletlər qurtarmaq üzrədir.

Kassalardan bildirildi ki, cənub zonası və qərb bölgəsi istiqamətinə tələbat çoxdur. Kassirlərin sözlərinə görə, bayrama bir gün qalmış qatarlara əlavə kupe-vaqonların qoşulacağı deyilib. Həmin gün tezdən vağzala gələn, ola bilsin ki, bilet tapar.

Vağzalın gücləndirilmiş iş rejiminə keçməsinə və əlavə vaqonlar qoşulacağına baxmayaraq, axın-axın insan izdihamı var. Sərnişinlər qatarla getməyin maddi cəhətdən sərfəli olduğunu qeyd edirlər. Məsələn, Bakı-Lənkəran qatarına plaskart 4 manat 50 qəpikdir. Halbuki, avtobusla adi günlərdə 5 manat, bayramda isə 6-7 manat olur. Avtomobillər isə adi vaxtda Lənkərana 15 manat, bayramda isə 20-25 manat olur. Bu baxımdan qatarlara tələbat daha çox var. Sərnişinlər isə narazılıq edirlər ki, hər bayramda eyni problemlə üzləşirlər.

Onların sözlərinə görə, hər kəs martın 19-na getməyi planlaşdırıb. Odur ki, sıxlıq məhz bu tarixə yaranıb. Hər kəs işdən çıxıb yola düşmək istəyir. Ancaq bu tarixə bilet qalmayıb deyə sərnişinlər çarəsiz vəziyyətə düşüb. Onlar ayın 19-da günorta saatlarında yola çıxa bilmir, çünki hər kəs işdə olur. Ancaq indi dəmiryol vağzalının kassası qarşısında uzun insan növbəsi yoxdur. Buna səbəb isə biletlərin artıq satılıb qurtarması idi. Biletlərin 10 gün qabaqdan satılıb qurtardığını deyən kassir xanım bilet qiymətlərində heç bir artım olmadığını da bildirdi.

Onu da deyək ki, Bakı dəmir yolu vağzalı yenidən qurulur. Vağzalın əsas binasının fasadı, memarlıq üslubunun saxlanması şərtilə, yenidən qurulacaq, vağzal binasının daxilində tam yenidənqurma işləri görüləcək. Bilet kassaları, saxlama kameraları, sərnişin platformaları müasir üslubda əsaslı təmir olunacaq, eskalatorlar yenisi ilə əvəzlənəcək.











Qeyd edək ki, XIX əsrin memarlıq abidələrindən olan Bakı sərnişin vağzalı 1884-cü ildə istifadəyə verilib. Vağzal binasının "Mavritaniya" üslubunda təqdim olunan ilk layihəsinin müəllifi Bruni, rəssamı Drittenpreys, memarı N.L.Qlebov olub, tikinti işlərinə isə memar L.Z.Rossi başçılıq edib.

*****

Buranı tərk edib avtovağzala üz tuturuq. Bakı Beynəlxalq Avtovağzal Kompleksində də sərnişin sıxlığı müşahidə olunur. Bayramı rayonda qeyd etmək üçün buraya üz tutan sərnişinlər həm avtobusların az olmasından, həm də süni qiymət artımından şikayətlənirlər.

Bakı Beynəlxalq Avtovağzalından rayonlara işləyən taksi sürücülərinin də gediş haqqını qaldırdığının şahidi olduq. Adi günlərdə Bakıdan şimal, qərb və cənub bölgəsinə sərnişin daşıyan taksilərdə qiymətlər 10-15 manat civarında dəyişirdisə, indi 20-25 manatdan aşağı deyil. Bilet tapa bilməyən sərnişinlər vəziyyətdən narazı idilər. Onlar deyirdilər ki, hər bayramda bu problemi yaşamaqdan təngə gəliblər.

Şikayət etməyin isə heç bir mənası yoxdur. Onlar çıxış yolu kimi xəttə əlavə avtobuslar buraxılmasını görürlər.

Sərnişinlər qeyd edirlər ki, qonşu ölkələrdə bayramlarda belə hengamə qopmur. Qonşu İran, Türkiyədə yüksək səviyyədə məsələ tənzimlənir. Azərbaycanda isə bu sahədə hərc-mərclik, anarxiya mövcuddur. Avtobus sürücüləri sərnişinlərdən nağd pul yığır, kassalar isə formal işləyir.

Xəzinədarlar sərnişinə bilet satmırlar. Məsləhət görürlər ki, avtobus sürücüsünə yaxınlaşıb gediş haqqını ödəyib yola düşsün.

Avtovağzal rəsmiləri hər il bu faktları təkzib etsə də, rüsvayçı mənzərə göz qabağındadır. Şikayətçilər deyirlər ki, ən böyük problem avtovağzaldan rayonlara gedən avtobusların adamları biletlə aparmaqdan imtina etməsidir. Belə ki, avtobus sürücüsü onun kassadan aldığı və üzərində "M-Trans" şirkətinin möhürü olan bileti qəbul etmir. Sürücülər deyir ki, "Siz nə etmisiniz, hamı sizin kimi bilet alsa, biz batarıq".

Ümumilikdə, sərnişinlərin sayı adi günlərə nisbətən iki-üç dəfə artıb. Sərnişin bolluğundan istifadə edən vağzal rəhbərliyi də qiyməti süni şəkildə qaldırır. Çünki bayram ərəfəsində rayona gedənlər - burada işləyənlər və tələbələr çoxalır. Əlacsız qalan bu insanlar hansı qiymətə olsa, onu alıb getməyə məcbur qalır.

❑ E.SALAMOĞLU
Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 58 (6086) 16 mart 2015

# "Bazarstore"də alıcıları aldadan marketlər sırasına qatıldı

## Vitrindəki qiymətlərlə kassadakı qiymət arasında ciddi fərq var...










**Manatın məzənnəsi dəyişdikdən sonra bir çox marketlər süni qiymət artımına başlayıb. Əhalinin narazılığını nəzərə alan, ən əsası isə İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən istehlak bazarında aparılan yoxlamalardan, cərimələnməkdən qorxuya düşən bir sıra marketlər alıcıları aldatmaq yolunu seçiblər. Belə ki, bəzi marketlər ərzaqları piştaxtada bir, kassada isə başqa qiymətə satırlar.**

Beləcə, mağazalar həm alıcını, həm də yoxlamaya gələn aidiyyəti qurumları aldatmış olur. Bu hal baş verən marketlərdən birinin də "Bazarstore" olduğu haqda söhbətləri nəzərə alıb yolumuzu bu marketdən saldıq. "Bazarstore"nin "28 Mall"da və Gənclik metrosu yaxınlığında yerləşən filiallarına baş çəkdik.

Müşahidələrimiz deyilənlərin doğru olduğunu göstərdi. Mağazada piştaxtadakı qiymətlərlə kassadakı qiymətlər arasında 10-50 qəpik arası fərq vardı. Belə ki, "Nescafe" paketlərinin bir ədədi vitrində 20 qəpik olduğu halda kassada 29 qəpiyə, 15 qəpiyə olan digər "Mackofe" kassada 20 qəpiyə, "Azərçay"ın vitrində kampaniyada olduğu və qiymətinin 82 qəpik olduğu qeyd edilsə də, kassada 1 manat 48 qəpikdən hesablanırdı. Həmçinin də düyü, qənd, yağ, şirniyyatların da vitrindəki qiyməti ilə kassada hesablanan qiyməti arasında böyük fərq vardı. Vitrində qiyməti 20 qəpik yazılan bir kofeni götürüb kassaya yaxınlaşdıq. Kassadakı xanım 29 qəpik ödəməli olduğumuzu bildirdi. Vitrində 20 qəpik yazıldığını və nəyə görə 9 qəpik aldıqlarını soruşduqda kassir xanım "o qiymətlər köhnədi, dəyişdirəcəyik" - cavabını verdi.

Bu məqamda daha bir alıcı kassada qiymətin çox hesablandığını deyərək etiraz edirdi. Kassa qarşısında aldığı ərzaqları yığdığı zənbildən boşaldan alıcı kassir xanımdan yenidən qiymətləri hesablamasını tələb etdi. Hesablama nəticəsində alıcı yenə də bir az əvvəl eşitdiyi 38 manat 23 qəpik rəqəmlə rastlaşdı. Alıcı çaşqın bir halda ərzaqları yenidən yığaraq mağazanı tərk etdi. Görünür, aldadılan alıcı vitrindəki qiymətləri yadında saxlaya bilmədiyi üçün kassada ona necə iki qat qiymət hesablandığının çaşqınlığı içərisində idi.

"Bazarstore"də adının çəkilməsini istəməyən satıcı mağazada qiymət artımının olduğunu təsdiqlədi: "Qiymətləri bahalaşdırmışıq. Nə etməliydik axı? Baha alıb ucuz sata bilmərik. Bizə də baha gətirilir. Nə gizlədək, Novruz bayramına yaxın qiymətlər bir az da artacaq. Xüsusən də bayram alış verişi üçün zəruri olan qoz-fındığın, düyünün, quru meyvələrin, ətin qiymətində kəskin artım olacaq".

Onu da qeyd edək ki, dəfələrlə bahalaşmanın yalnız xaricdən gətirilən məhsullara şamil ediləcəyi deyilsə də, yerli məhsulların da qiymətində nəzərə çarpacaq bahalaşma vardı.

Xatırladaq ki, bahalaşmanın bütün marketlərdə baş verdiyi halda iki marketin "Bazarstore" və "Makromarket"in adları süni qiymət artımı olan marketlərin sırasına aid edilmirdi. Bu da alıcıları sevindirir və həmin marketlərə üz tutanların sayını artırırdı. Ancaq göründüyü kimi, alıcıların sevinci uzun sürmədi. "Makromarket" kassada alıcıları aldatmasa da, qiymətlərdə müəyyən artımlar edib.

"Bazarstore" isə qiymətləri vitrində ucuz yazmaqla alıcıları aldatmaqla daha çox pul qazanmaq qərarına gəlib. Həmçinin, supermarketdə yerli istehsal olan və istehsalçı şirkət tərəfindən bahalaşmadığı açıqlanan ərzaq məhsullarının da qiymətində bahalaşma müşahidə etdik.

"Bazarstore"vitrində başqa kassada isə başqa qiymət yazaraq alıcıları aldadan ilk market deyil. Eyni hal "Neftçilər" metrosu yaxınlığındakı "Qarabağ", Nərimanov rayonundakı "Çinar", Xətai rayonunda yerləşən "Ümid" marketlərdə, "Grandmart"da da baş verib.

"Çinar" və "Ümid" market cəzalandırılsa da, bunun kimi onlarla marketlər hələ də alıcıları aldatmağa davam edir.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Bakı-Sumqayıt yolu bərbad hala düşüb

## 30 illiyə istismara verilən avtoban magistralın ömrü 5 il də çəkmədi









**2011-ci ildə tam olaraq istismara verilən Bakı-Sumqayıt (Bakı-Quba-Rostov-red.) yolu bərbad hala düşüb. Əslində, bu avtoban magistralda çökmə, qabarma və dağılma halları 2012-ci ildən müşahidə edilməyə başlamışdı. 2013-cü ildə yolun bir xeyli hissəsində təmir-bərpa - əslində yamaqvurma işləri aparıldı. İndi isə Bakı-Sumqayıt yolu "müharibədən çıxmış" durumu xatırladır.**

Bakı-Sumqayıt yolunun bəzi hissələrində - Masazır, Saray, Ceyranbatan qəsəbələri ərazisində - çəkilən fotolardan da görünür ki, şose dəfələrlə yamanmaqdan yararsız haldadır. Bakı-Sumqayıt yolunda artıq elə vəziyyət yaranıb ki, 3 zolaqlı yolun iki zolağında hərəkət avtomobillərə ziyan vurduğundan hamı 1-ci zolaqla hərəkət edir. Bu isə axına mane olur, qəzalar törənir. Son vaxtlar Bakı-Sumqayıt yolunda ağır qəzaların artmasının əsas səbəblərindən biri də yolun dağılmasıdır. Hamı nisbətən normal vəziyyətdə olan birinci zolaqla hərəkət etmək istəyir, amma heç də hamı sürətlə sürmür. Arxadan sürətlə gələn avtomobil isə birinci yoldan ikinci yola keçmək istəməyən maşını manevr edərək - sağdan ötüb keçməyə çalışır və qəza baş verir...

Bakıdan Sumqayıta qədər şose boyunca hər iki tərəfdə qabarmalar, enmələr, çalalar əmələ gəlib. Düzdür, dağılan yerləri əksərən yamayıblar. Amma məsələ ondadır ki, Bakı-Sumqayıt yolunun 30 il müddətinə istismara verildiyi bəyan edilmişdi. Nəinki 30, cəmi 2 il sonra yol bərbad hala düşüb. Bu, həmin şossenin keyfiyyətsiz çəkilməsinin, ciddi maxinasiyalara yol verilməsinin göstəricisidir.

Nəzərə çatdıraq ki, həmin yolun çəkilməsinin sifarişçisi Nəqliyyat Nazirliyi, podratçı şirkət isə "Akkord" Sənaye Tikinti İnvestisiya Korporasiyası olub. Eyni zamanda bu yolun yenidən qurulmasında alman şirkətləri də icraçı kimi iştirak ediblər.

Hələ yol inşa edilən zaman mütəxəssislər işlərin həddən artıq keyfiyyətsiz aparıldığını və qısa müddət sonra bu şosenin dağılacağını bildirirdilər. Gözləntilər artıq özünü doğruldur.

Nəzərə çatdıraq ki, Bakı-Quba yolu təkcə Sumqayıta qədər olan ərazidə deyil, Xızı, Siyəzən, Xaçmaz rayonları ərazilərində də dağılıb.

Nəzərə çatdıraq ki, Bakı-Quba-Rostov yolunun qurulmasına 630 milyon manat pul ayrılmışdı.

❑ **Maqsud MAHRIZLI**

# Onlar nə yeyib içir?



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Ötən bir həftə iki deputatın "xoruz səsi eşitməmiş" bəyanatları, müsahibələri ilə yadda qaldı. Aradan bircə gün keçmiş səhvlərini anlayıb, geriyə doğru addım atsalar da.. Unutqan xalqımız bütün pisliklər kimi bunu da bir neçə ay sonra xatırlamayacaq, amma yaxın bir-iki həftə üçün aktualdır. Odur ki, fürsətdən istifadə biz də köhnə palan içi eşək, tökək... Hesab edək ki, bahar təmizliyidir.**

Axı biz niyə təəccüblənirik? Buna qədər də bizi əcaib-qəraib açıqlamaları ilə şoka salan, ayağımızı yerə mıxlayan deputatlarımız, məmurlarımız olmayıbmı? Bir neçəsini sadalayaq, yaddaşımız təzələnsin.

Siyavuş Novruzov: "Kreditləri qaytarmaqdan ötrü ya silah, ya narkotika satmalısan, ya da insan alveriylə məşğul olmalısan".

Qüdrət Həsənquliyev: "Qarabağı həll etmək üçün Rusiyanın hərbi bazalarını Azərbaycanda yerləşdirmək lazımdır".

Hadı Rəcəbli: "Əgər sən yedirə, geyindirə, sağlamlığını təmin edə bilmirsənsə, nə üçün uşaq doğurursan? Get özünü axtala. Sənə iki uşaq da bəsdir".(Tarix 2011-ci il)

Fəzail Ağamalı: "Hamı qanuni oğru Rövşən Lənkəranskiyə bənzəməlidir".

Haci Qalib: "Həccə getmək üçün Allahdan razılıq alınmalıdır, 26 dəfə Həccə getmişəm".

Hacıbala Abutalıbov: "Azərbaycanda bir kişi var, o da cənab Prezdentimizdir".

"Jurnalist görəndə qəbirdə xortlayan ölü görürəm".

Südabə Həsənova: "Demokratiyanı beşikdə boğmaq lazımdır!"

Zeynəb Xanlarova: "Müəllim və həkimlərin maaşını qaldırmaq lazım deyil, onları xalq dolandırır".

Rasim Daşdəmirov: "Lissabonun Sammit şəhəri"

Əhəd Abıyev: "Mənə youtube-nin bas redaktorunu tapın".

Artur Rasizadə: "Camaat qışda təzə xiyar yeyir, ona görə inflyasiya olur".

Sabir demiş, hələ mən gördüklərimin yüzdə birini yazmıram. Üzümüzə söyüb çoxu, səsimizi çıxarmamışıq. Cəmi bir dəfə "burda kişi yoxdur" sözünə görə İsmayıllıda ciddi etiraz oldu. Amma yerdə qalanların hamısına "ləbbeyk" deyib keçmişik. Sadəcə yaşananlar üst-üstə yığılanda təəccüb etməklə kifayətlənmişik. Üstəlik zarafata salıb, "balam, bunlar nə yeyib içirlər belə?" deyə istehza da etmişik öz aləmimizdə. Baxmayaraq ki, bu durumda istehza obyekti daha çox özümüz idik.

Adamlar bizim vergilər hesabına yeyib-içir, dolanır, bizim oğurlanmış səslərimizlə dünyanın ən gözəl şəhərlərində səfərdə olur, neft pullarının altından girib, üstündən çıxırlar. Və siz hələ də soruşursuz ki, bu məntiqin yiyələri nə yeyib içir? Kürü yeyirlər, yedizdirirlər, sizin toydan-toya, bayramdan-bayrama üzünü gördüyünüz nemətlər onlar üçün adiləşib. Evlərində saxladıqları it-pişiklərinə belə sizin aylıq istehlak səbətinizdən baha çıxan yeməklər alırlar. Hansı birinə etiraz etmişik? Sosial etiraz deyilən şey baş veribmi? Orda-burda lağlağı edib, üstündən keçmişik. Biri karikatura çəkib, o biri kollaj düzəldib, bir başqası status, ən kəskin halda köşə yazısıE Sonrası.. siz sağ, mən salamat. İctimai məsuliyyət deyilən şeyi heç biri dərisində hiss etməyib, bunu yaşatmamışıq onlara. Halbuki dünyanın hansı ölkəsində belə məsuliyyətsiz bəyanat verən olsaydı, camaat onların istefasını tələb edər, dediyinə peşman edərdi.

Bizdə isəE sağ olsun, uca xalqımız, menzurkasındakı şkalalar fərqli göstərir. Belə açıqlama müəlliflərinə "kefqom", "zarafatcıl" oğlanlar deyir. Yeri gələndə uşaqlarına onları, onların həyat prinsipini missal göstərir. "Haqqın yolunu o tapıb" deyə həsəd aparırlar yeri gələndə. Palaza bürünüb ellə sürünməyin ilahi ədalət olduğuna inanan optimist nəslin nümayəndələriyik hamımız.

Kim təminat verə bilər ki, bundan sonra ünvanımıza daha ağır sözlər eşitməyəcəyik? Əminsiz ki, bir azdan "kasıb ölməlidir" və ya "pulun yoxdur, çıx körpüyə" kimi bəyanatlar verilməyəcək məmurlarımız tərəfindən? Bu günə qədər bunu davranışları, reaksiya(sızlıq)ları ilə deyirdilər, indi isə uca səslə, hamının eşidəcəyi tonda. Planka gündən-günə qaldırılacaq, rənglər tündləşəcək, ammaE tünd sirkə yenə də öz qabını yox, millətin qabını çartladacaq.

Bizdə atalar sözləri də məmurların xeyrinə işləyir nə yazıq ki...

YENİ MÜSAVAT
N 58 (6086) 16 mart 2015

# “Milli geyimlər bizim son dəyərimizdir”

## Modelyer Laləndər Novruzova: “Bu geyimə xəyanət etmək, onu öz tarixi formasından çıxarmaq olmaz...”






**Milli geyimlərimiz, əlvan libaslar, arxalıqlar, çuxalar, araxçınlar, müəyyən adətlər, keçmişdən günümüzə qədər gəlib çatan qaydalar Novruz bayramı ərəfəsində yenidən xatırlanır. Bəzi insanlar isə keçmişin unudulmaması, yaşadılması, hətta yenidən yaradılması ilə məşğuldurlar.**

Modelyer Laləndər Novruzova da həmin sənətkarlardan biridir. Xanım bildirir ki, İnşaat İnstitutunda mühəndislik təhsili alsa da, milli geyimlərin tanıdılması ilə məşğuldur. Mədəniyyət və sosial layihələrə daha çox vaxt ayırır. Onun əl işlərinə aksesuarlar və incə detalları ilə zəngin olan milli paltarlar daxildir. Laləndər xanım səhnə və tamaşaların bəzədilməsinin dizaynı ilə də məşğul olur.



L.Novruzova “Nizami” metrostansiyasının yaxınlığında, M.Əbilov küçəsində kiçik emalatxanada çalışır. Burada həm milli geyimlərin tikilişi, dizayn edilməsi ilə məşğul olur, həm də şagirdlər yetişdirir. Xanım qeyd edir ki, dərzi olan anası onda uşaqlıqdan biçmə-tikmə işlərinə maraq oyadıb. Dördüncü sinifdən tikişlə məşğuldur. İyirmi ildən artıqdır ki, qədim və milli geyimlərimizin tanıdılması, təbliği ilə məşğuldur. O, bunun üçün pulsuz tikiş kursları da təşkil edib, gəncləri öyrədir: “Bu geyimlər də tarixdir. Onları öyrətmək, insanlar arasında yaymaq istəyirəm”.

Laləndər xanım “Mədəniyyətlərin təbliği və xalq yaradıcılığına dəstək” adlı qeyri-hökumət təşkilatı da yaradıb. Bu təşkilat vasitəsi ilə də mədəniyyətin təbliği ilə məşğuldur. “Tikdiyimiz paltarları həm satırıq, həm kirayə veririk. Ancaq mənim üçün əsas bu, deyil. Əsas milli geyimlərimizə maraq yaradılmasıdır, cəmiyyətdə maraq oyadılmasıdır. Biz buna çalışırıq. Təəssüf olsun ki, milli dəyərlərimiz aşınır, bəsitləşdirilir və unutdurulur. Hazırda ölkədə satılan milli geyimlərin əksəriyyəti heç standartlara uyğun deyil. Məni bir müəllim kimi narahat edən məsələ odur ki, bu geyimlərdə milliliyimiz itir. Geyimlərin forması da saxtalaşdırılır. Həmin geyimlərdə nə parça fakturası, nə üslubu, ümumiyyətlə, heç nə milli geyimə uyğun deyil. Deyərdim ki, milli geyimlər bizim son dəyərimizdir, onu qorumaq lazımdır. Milli geyimə xəyanət etmək, onu öz tarixi formasından çıxarmaq olmaz. Tarixi gələcək nəsillərə düz çatdırmaq lazımdır”.

L.Novruzova bildirir ki, qədimi milli geyimlərin tikilişi üçün anasından qalma kitab və çertyojlardan istifadə edir. Həmçinin, Milli Elmlər Akademiyasındakı mütəxəssislərlə məsləhətləşir. Qurumdakı sənətşünas və folklorşünaslarla müzakirələr nəticəsində incə üslublu müxtəlif cür milli geyimlər tikir: “Biz iyirmi il əvvəl fərdi şəkildə fəaliyyət göstərirdik, sifarişlə milli geyimlər tikirdik. Beş-altı il əvvəl isə bu geyimlərə tələbat artmağa başladı və biz emalatxana açdıq. Burada tələbələrimlə tikdiyimiz geyimləri əsasən kirayə veririk. Geyimləri az adam alır. Əsasən xınayaxdı mərasimləri üçün, yaxud Novruz bayramında geyim kirayə götürürlər. Bundan başqa, teatrlar da milli geyimlər üçün bizə müraciət edirlər. Hazırda milli geyimləri sifarişlə də tikirik. Novruzqabağı sifarişlər olur daha çox. Keçirdiyimiz xınayaxdı mərasimlərinə də ticarət kimi yanaşmırıq, mədəniyyətimizin, adətimizin təbliği yönündən yanaşırıq”.

Onun sözlərinə görə, tələbələrinə milli geyimləri sevdirməyi bacarıb: “İndi də onlar sevə-sevə bu geyimləri tikirlər. Bu geyimlərdə o qədər incəlik, gözəllik var ki, onu sevməmək mümkün deyil”.

Reklam olunmağı sevmədiyini deyən modelyer etdiklərinin adətlərimizin unudulmaması üçün fayda verəcəyinə də əminliyini vurğulayır: “Adətlərimizi, geyimlərimizi gələcək nəsillərə normal şəkildə çatdırmaq lazımdır. Bu, borcdur həm də”.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**



## Salyanda traktor kanala düşdü - 8 yaşlı uşaq öldü...

**Salyanda traktorun kanala aşması nəticəsində 8 yaşlı uşaq ölüb. APA-nın Mil-Muğan bürosunun verdiyi məlumata görə, martın 14-də Salyan rayonunun Düzənlik kənd sakini, 1991-ci il təvəllüdlü Yusif Eldar oğlu Abbasov idarə etdiyi traktoru kanala aşırıb.**

Onun traktorda olan qardaşı oğlu, 2007-ci il təvəllüdlü Abbasov Əvəz Elşad oğlu ağır bədən xəsarətləri ilə xəstəxanaya aparılarkən yolda dünyasını dəyişib.

Traktorun sürücüsü isə Şirvan Şəhər Mərkəzi Xəstəxanasında ambulator yardım aldıqdan sonra evə buraxılıb.

Faktla bağlı Salyan polis şöbəsində araşdırma aparılır.


**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04



**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

Yeni MÜSAVAT
N 58 (6086) 16 mart 2015

**Bu yaxınlarda cəmiyyət mühəndislərindən biri müsahibəsində insanların sosiallaşmaq adına həyati əhəmiyyət daşıyan bəzi vərdişlərindən vaz keçdiklərini demişdi. Bunlardan biri də alış-veriş vərdişi idi. Belə ki, artıq müasir dünya insanı onlayn bazarlığa önəm verməyə başlayıb. Evindən çıxmadan, internetin, kompüterin başında mağazadan özünə geyim, evinə əşya, hətta yemək, bazarlıq edir. Məhsulu gözü ilə görmədən, necə deyərlər, toxunmadan, keyfiyyətini yoxlamadan, paltardısa əynində necə qaldığını bilmədən, yeyinti məhsuludursa, qoxusunu hiss etmədən... onu almağa çalışır.**



# Şopinq edək, amma evdən çıxmayaq...

## Online alış-verişin fəsadları və müştərilərə qurulan tələlər

### Ən məşhur saytlar və aralarındakı rəqabət...

Son illər Azərbaycanda da onlayn alış-veriş saytlarının sayı çoxalıb. Tezbazar.az, bazarlıq.com, bazarolsun.com, bizimmarket.com, bookstore.com, ekskluziv.az, ququ.com, eniqma.az, torg.az, florist.az, ae-magaza.com, shop.az, topshop.az, gerek.az, fulal.com tipli saytlar tez-tez sosial şəbəkədən bizlərə boylanır. Artıq milli adlanan bu saytlarla yanaşı, Türkiyə və Rusiya saytlarında da sözügedən xidmətlər populyardır və milli alıcılar onlara da müraciət edir.

Amma dünya üzrə məşhur olan onlayn alış-veriş saytları amazon və ebay-dır. Bundan başqa olanlar əsasən lokal ərazilərdə tanınan saytlardır və ölkələr-bölgələr üzrə kifayət qədər tanınmış saytlar var. dhgate.com saytı da bu qəbildəndir. Amma orda əsasən Çin mallarıdır. Çinin ən böyük elektron alış-veriş portaldır. Burada bir malbaxdıqda onun hansı express-lə göndəriləbiləcəyi və qiyməti yazılır. SpiderBuy.com saytında da qiymətlər amazon və ebayla rəqabətdədir.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin rəsmi saytına istinadən məlumatına görə, sözügedən həcmin artım tendensiyası, e-ticarətə müraciət edənlərin sayının sürətlə çoxalması ölkə rəhbərliyinin diqqətini cəlb edib və bu sahədə vətəndaşlarımızın rahatlığının təmin edilməsi və maddi maraqlarının qorunması istiqamətində Azərbaycan hökuməti tərəfindən mühüm addım atılıb. Belə ki, elektron ticarət yolu ilə daha qiymətli mal və əşyaların gətirilməsinə şərait yaratmaq məqsədilə müvafiq gömrük qaydaları yenidən işlənib. Bununla bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli qərarı ilə "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş qaydaları" təsdiq edilib.

Yeni qaydalarda öz əksini tapmış əsas prinsipial məqamlardan biri də ondan ibarətdir ki, beynəlxalq poçt göndərişləri vasitəsilə eyni fiziki şəxsin adına 30 gün müddətində ümumi gömrük dəyəri 1000 ABŞ dolları ekvivalenti məbləğindən artıq olmayan gömrük ərazisinə gətirilən qeyri-kommersiya, yaxud qeyri-istehsal xarakterli mallar güzəştli qaydada (gömrük ödənişlərini ödəmədən) gömrük sərhədindən keçirilməklə poçt vasitəsilə gətirilə bilər.

Məlumdur ki, əvvəllər bu güzəştin məbləği 200 ABŞ dolları ekvivalenti təşkil edib. Digər bir yenilik isə ondan ibarətdir ki, əgər gətirilən malın dəyəri təyin olunmuş həddi (1000 ABŞ dollarını) aşarsa, gömrük rüsumu yalnız həmin həddən artıq olan məbləğə tətbiq ediləcəkdir. Bundan əvvəlki qaydalara görə isə, gömrük rüsumu dəyəri 200 ABŞ dollarından yuxarı olan malın tam dəyərinə tətbiq edilirdi. Sözügedən dəyişikliklər vətəndaşlara daha böyük imkanlar yaratmaqla onların vəsaitlərinə qənaət etməsinə gətirib çıxardıb. Bu qərar artıq cari ilin noyabr ayının 27-dən qüvvəyə minib. Hesab edilir ki, vətəndaşların hökumətin onlar üçün yaratdığı bu imkanlar barəsində məlumatlarının artması alış-veriş zamanı elektron ticarətə üstünlük verəcək, bu da öz növbəsində poçt göndərişlərinin həcminin daha da artmasına təsir edəcəkdir.

Bununla yanaşı, yeni qaydalar vətəndaşlarımıza şəxsi istifadəsi üçün daha geniş çeşidli və dəyəri nisbətən yüksək olan mal və əşyaların beynəlxalq poçt göndərişləri vasitəsilə gətirilməsinə şərait yaradacaq.

Qeyd olunmalıdır ki, bu sahədə poçt müəssisələrinin üzərinə də ciddi vəzifələr düşür. Ona görə də "Azərpoçt" MMC tərəfindən artıq bəzi tədbirlər həyata keçirilməkdədir. Belə ki, internet sifariş əsasında ölkəyə daxil olan poçt göndərişlərinin çatdırılma keyfiyyətini yüksəltmək məqsədilə "Azərpoçt" MMC-də yeni "SMS-bildiriş" xidmətinin tətbiqinə başlanılıb.

Poçt müəssisələrinə daxil olan beynəlxalq göndərişin üzərində alıcının telefon nömrəsi olduqda, həmin nömrəyə operativ olaraq "SMS-bildiriş" göndərilir və bildirişdə vətəndaşın adına poçt göndərişinin daxil olması və göndərişi almaq üçün xidmət göstərən poçt şöbəsinə müraciət etməyin zəruriliyi barədə məlumat verilir.

Yeni xidmətin tətbiqi artıq ilk müsbət nəticələrini verib və beynəlxalq kiçik paket və bağlamaların çatdırılmasını xeyli dərəcədə sürətləndirib.

### Arzularla reallıq üst-üstə düşmür

Bu günlərdə sosial şəbəkədə onlayn alış-verişin fəsadları ilə bağlı maraqlı bir fotosessiya paylaşılmışdı. Həmin fotosessiyada insanlara onlayn alver saytlarında təqdim edilən parıltılı paltarların sifariş verilib, ünvana çatdırılandan sonrakı görüntüləri təqdim edilmişdi. Yəni ki, müxtəlif effektlərin və onları daşıyan manekenlərin köməyi ilə olduqca cəlbedici görünən paltarların sifarişdən sonra... "ağlamalı" görüntüsü hər kəsi şoka salmışdı. Əslində isə problem təkcə bu görüntünün pisliyində deyil. Onlayn alış-verişin müsbət cəhətləri ilə yanaşı inanılmaz fəsadları da var. Bu barədə bir qədər sonra.

### Bu sektorun "əli" milyardlarla oynayır

Ondan öncə isə xatırladaq ki, yuxarıda sadaladığımız saytlarda təklif olunan mallar əsasən geyimlər, elektronika malları, ev əşyaları, mətbəx avadanlıqları, aksesuarlar, gəlinliklər, qızıl və gümüş əşyalar, şirniyyat, bəzi növ dərmanlar, məlhəmlər, ətirlər, kosmetika, kitablar, disklər, ev, maşın və daşınmaz əmlak, uşaq əşyaları, musiqi alətləri, velosiped və bu tipdən bir çox əşyalardır. Bəzi saytlarda (bazarolsun.com) hətta ev heyvanlarının alış-verişi də təklif olunur.

Dünyada isə elektron ticarət çox inkişaf edib. Rəqəmlərə inansaq, 2012-ci ildə Qərbi Avropada internet vasitəsilə satılan mal və xidmətlərin ümumi məbləği 160 milyard avroya yaxın olduğu halda, 2013-cü ildə 175 milyard avroya, 2014-cü ildə isə 190 milyarda çatıb. İl ərzində regionda 100 milyondan çox istehlakçı ən azı bir dəfə onlayn alış-veriş edir. Böyük Britaniya, İrlandiya, Fransa, Belçika, Niderland və Lüksemburq kimi ölkələrin daxil olduğu Qərbi Avropa ticarət baxımından qitənin vacib regionu hesab olunur. Belə ki, Qərbi Avropanın ümumavropa bazarında payı 51 faiz təşkil edir. Elektron ticarətdə ən yüksək göstəriciləri Böyük Britaniya nümayiş etdirir. Reytinqdə ikinci və üçüncü yerləri Fransa və Niderland tutur. Avropada elektron ticarət bazarının ən sürətli inkişafı İrlandiyada müşahidə olunur. Bu ölkədə onlayn ticarətin həcmi ildə orta hesabla 25 faiz artaraq 5 milyard avroya çatıb. Lakin qeyd etmək lazımdır ki, irlandiyalıların internetlə etdikləri alış-verişin təxminən dörddə bir hissəsi xarici mağazaların payına düşür. Belçikanın elektron ticarət bazarında artım 20 faizə bərabərdir, lakin burada satış həcmi nisbətən azdır.

Qərbi Avropada elektron ticarətin yüksək səviyyədə inkişaf etməsinin səbəblərindən biri kimi internetin nüfuzetmə səviyyəsi göstərilir. Region əhalisinin 83 faizi daimi internetə çıxış imkanına malikdir.

### Aldanmamaq üçün 10 qızıl məsləhət

Mütəxəssislər isə elektron alış-verişdə müştərilərin aldadılmaması üçün bir neçə maraqlı tövsiyələr verir. Bunları bir-bir sadalayaq:

1. Alış-veriş saytı haqda araşdırma aparın.

Online alış-veriş edəcəyiniz saytın kimə aid olduğu və nə qədər müddətdir fəaliyyətdə olduğuna dair bir araşdırma aparın. Saytın rəsmi qeydiyyatının olması, etibarlılıq dərəcəsini isə onun "əlaqə" bölməsini araşdırmaqla müəyyənləşdirmək mümkündür. Heç bir halda tanınmamış, adı duyulmamış, məşhur olmayan saytardan alış-veriş etmək olmaz.

2. İstifadəçilərin rəyləri ilə tanış olun.

Alış-veriş etmədən öncə forumlarda və ya sosial şəbələrdə o markaya aid paylaşılan məlumatları oxuyun, istifadəçi rəyləri ilə tanış olun. Bununla dad aha öncəki təcrübələri oxuyub, özünüz üçün müəyyən nəticələr çıxara bilərsiz.

3.SSL sertifikatı olub-olmadığını yoxlayın.

Online alış-veriş xidməti təqdim edən bütün saytlar dünya miqyasında kredit kartı etibarlılığı üçün bir standart olan SSL sertifikatından istifadə etməyə məcburdur. SSL sertifikatı olmadan heç bir bankdan onlayn pos almaq imkanı yoxdur. Saytın bu sertifikata sahib olub olmadığını mütləq yoxlayın.

4. Ortaq kompüterləri istifadə etməyin.

Ortaq istifadə edilən kompüterlərdən alış-veriş etməyin. Bu kompüterlər üzərindən kredit kartı və şəxsi məlumatlarınızı əsla paylaşmayın.

5. Asan təxmin edilə bilməyəcək bir şifrə seçin.

Online alış-veriş üçün bir sayta üzv olarkən başqaları tərəfindən asanlıqla təxmin edilə bilməyəcək bir şifrə seçməyə çalışın.

6. Uzaqdan məsafəli müqavilə yoxdursa...

Online alış-veriş saytları uzaqdan məsafəli satış müqaviləsi və ön məlumatlardırma formu təqim etməkdədir. Əgər alış-veriş həyata keçirən e -ticarət şirkəti bu müqaviləni təqdim etmirsə, bu saytlardan alış-veriş etməyin.

7. Qiymətlə bağlı məlumatlara diqqət edin.

Alış-veriş etdiyiniz saytdakı məhsulların qiymətləri sizə inandırıcı gəlmirsə, şübhələrinizi ciddiyə alın, araşdırma aparın. Saytda göstərilən qiymət isə məhsulu onlayn səbətə atdığınız zaman görünən qiymətin eyni olub-olmadığına nəzarət edin.

8. 3D ödəmə sistemindən istifadə edin.

3D ödəmə sistemi (şifrəli ödəmə), e-ticaret əməliyyatlarının etibarlılığını artırmaq məqsədilə inkişaf etdirilmiş özəl bir sistemdir. Daha dəqiq desək, həm satıcı, həm də alıcı üçün qoruyucu bir etibarlılıq mərhələsidir. Ona görə də 3D ödəmə variantını təqdim edən saytları seçin.

9. Fırıldaqçı online alverçilər daha çox arıqlamaq üçün vasitələr, ucuz kosmetika və işlənmiş elektronika təklif edir. Bir çox hallarda tanınmış firmaların mallarının saxtasını təklif edirlər.

10. Alacağınız malın haqqında təsnifatlı məlumat öyrənin, çünki malı bəyənmədiyiniz təqdirdə geri qaytarmaq üçün tutarlı əsaslarınız olmalıdır.

Bundan başqa, mütəxəssislər qeyd edir ki, saytda onlayn ödəmə edərkən Ödəmə etdiyiniz bölməni tıklayanda saytın üzərində deyil, kənardan əlavə səhifə açılırsa ödəmə etməyin. Ödəmə səhifəsi dərhal açılmamalıdır, açılma prosesi saytın yüklənməsi prosesi kimi olmalıdır.

*****

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə mediaya açıqlamasında bildirib ki, onlayn alış-veriş ticarət bazarında əsl rəqabətdir. Onun fikrincə, bəzən online alış-verişin uğursuz olduğu barədə sözlər istifadə olunur, amma əslində bu sahədə ildən-ilə vəziyyət yaxşılaşır: "Onlayn alış-veriş edərkən insanlar çox diqqətli olmalıdır. Çünki bəzən mal keyfiyyətsiz olduqda onu geri qaytarmaq mümkün olmur. Buna görə də, bütün şərtləri dəqiq öyrənmək lazımdır".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 58 (6086) 16 mart 2015



# 17 yaşında sürücülük vəsiqəsi aldı

İsveçdə yaşayan 17 yaşlı qız gənc yaşda tarixə düşüb. İsveçin dövlət radiosu olan "P4"-ün xəbərinə görə, Sörmland bölgəsində yaşayan Frida Enehöj 17 yaşında sürücülük vəsiqəsi alaraq bir ilkə imza atıb. Heyvanlara, toza, ətirlər kimi bir çox şeyə allergiyası olan qız avtobusa minə bilmədiyi üçün sürücülük vəsiqəsi almaq istəyib. Uzun müddət bu iş üçün çalışdıqdan sonra onun sürücülük imtahanına girməsinə icazə verilib. İmtahanda bütün sualları cavablandıraraq vəsiqə alan qız ölkə tarixinə düşüb.



# Oğlanlar daha çox dedi-qodu edirmiş...

Amerikanın Georgia Universitetin alimlərinin apardıqları araşdırma nəticəsində məlum olub ki, kişilər uşaqlıq və yeniyetməlik illərində yaşıdları haqqında qadınlarla müqayisədə daha çox dedi-qodu edirlər. Eyni zamanda özləri ilə yaşıd olan oğlanlara mənəvi zərbələr vurmağı sevirlər. Araşdırma zamanı 620 uşağın ətrafındakı insanlarla münasibətini orta məktəbdən universitetə qədər izləyən mütəxəssislər bu müddət ərzində onların 96 faizinin ən azı bir dəfə dedi-qodu etdiyini deyiblər. Oğlanlar bu məsələdə qızlarla müqayisədə daha öndə olurlar. Oğlanlarda dostları ilə dalaşmağa və ya onlara mənəvi baxımdan pis təsir etməyə meyillilik qızlardan daha çoxdur.

# Mişel Obama yenə efirdə oynadı

Amerika prezidenti Barak Obamanın həyat yoldaşı Mişel Obama məşhur aparıcı Ellen Degenersin proqramına dördüncü dəfə dəvət edilib. Amerikanın ən məşhur verilişlərindən biri olan "So You Think You Can" adlı rəqs yarımasının qalibləri də M.Obama ilə birlikdə studiyada olublar. Proqram zamanı aparıcı yarış qaliblərindən rəqs etmələrini istəyib. Həmin anda M.Obama da onlarla birlikdə rəqs etmək istədiyini bildirib. Rəqsi ilə hər kəsi təəccübləndirən firs lady onları Ağ Evə də dəvət edib. Rəqs yarışmasının qalibləri Pasxa bayramında Ağ Evdə rəqs edəcəklər.



# Həyatın 15 qızıl qaydası

1- Ucuz avtomobildən istifadə et, amma ala biləcəyin ən gözəl evi al.
2- Maraqlı üç lətifə öyrən.
3- Sevinclərini heç vaxt təxirə salma.
4- Həyat yoldaşını çox yaxşı seç. Çünki bu seçim xoşbəxtliyinin və ya bədbəxtliyinin 90%-ni meydana gətirər.
5- Hər gün 30 dəqiqə piyada gəz.
6- Hər yeməkdən əvvəl şükür et.
7- Bir yoldaşına sirrini açmazdan əvvəl iki dəfə düşün.
8- Maaşını verən şəxsləri heç vaxt tənqid etmə.
9- İtirəcək şeyləri olmayan insanlardan qorx.
10- Gözünün qarşısında həmişə gözəl şeylər saxla.
11- Uşaqların, adət sözünü eşitdiklərində Səni xatırlayacağı şəkildə yaşa.
12- Dininə aid kitabı tam mənasıyla oxumaq üçün özünə bir il vaxt ver.
13- Özünü və başqalarını bağışlamağı bil.
14- İlkin tibbi yardımı öyrən.
15- Biri səni qucaqladığında ilk buraxan sən olma.





# Ağ saçlardan qurtulmağın yolu tapıldı

Saç rənglərindən istifadə etmədən ağarmış saçlardan birdəfəlik xilas olmaq mümkündür. Buna nail olan rus xanım öz sevincini və təəccübünü sosial şəbəkədə hər kəslə bölüşüb: "Bu nədirsə çox fövqəladə bir şeydir! Mən şokdayam! Mən əvvəllər bunu heç ağlıma belə gətirməzdim. Hər dəfə rəngləməkdən bezdiyim ağarmış saçlardan birdəfəlik qurtulduğuma inana bilmirəm".

Metod çox sadə və effektlidir. Bir qaşıq bal, bir qaşıq gənəgərçək yağı, bir qaşıq konyak, yumurta sarısından hazırlanmış saç maskasını qarışdırıb saçların dibinə yaxmaq lazımdır. Buna 5 dəqiqə vaxt sərf edilir. Bundan sonra maskalı saçı bağlayıb 2-3 saat gözləyirsiniz və şampunla yuyursunuz. Həftədə iki dəfə təkrarlamaq şərti ilə artıq 3 və ya 4-cü prosedurdan sonra nəticəni görəcəksiz.




**QOÇ** - Paralel olaraq bir neçə işlə məşğul olmaq, həlledici məsələlərdə qətiyyət göstərmək bu gün üzərinizə düşən başlıca vəzifədir. Bir sözlə, bu gün istirahət və ya passiv olmaq barədə düşünməməlisiniz.

**BUĞA** - Nə qədər səmimi olsanız, hörmətiniz də bir o qədər artacaq. İstənilən münaqişədə tərəfsiz mövqe tutun ki, düşmənləriniz artmasın. Günün ikinci yarısında büdcəniz ağırlaşa bilər. Səfərə çıxmayın.

**ƏKİZLƏR** - Münasibətləri dərinləşdirmək üçün fürsətdir. Ürəyinizə yaxın bildiyiniz hər kəsə baş çəkməyə, heç olmasa zəng etməyə çalışın. Bugünkü addımlarınızdan asılı olaraq sizə qarşı münasibət müsbətə doğru dəyişə bilər.

**XƏRÇƏNG** - Xoş təsadüflərlə zəngin bir gün yaşayacaqsınız, hətta ola bilsin ki, çoxdan görmədiyiniz insanlarla da rastlaşasınız. Saat 15-18 aralığında isə maraqlı təkliflər alacağınız gözlənilir.

**ŞİR** - Pulsuzluğu özünüzə dərd hesab etməyin. Əsası odur ki, tənha qalmayasınız. Bu, bürcünüz üçün ən dözülməzidir. Yaxşısı budur, gücünüzü yarımçıq qalmış işlərin həllinə yönəldəsiniz.

**QIZ** - Bahar nəfəsinin duyulduğu bu təqvimdə mənəvi rahatlıq tapmaq sizin üçün o qədər də çətin olmayacaq. Üstəlik, ətrafınızda olan insanların sizə münasibətində müsbət amillər, hətta sürprizlər də mümkündür.

**TƏRƏZİ** - Qarşınızda elə bir gün durub ki, Göy qübbəsi addımbaşı sizi sevindirə bilər. Hər an möcüzə gözləyin, amma özünüz də boş oturmayın. Bu təqvimdə ailə üzvlərinizə qayğınızı əsirgəməyin.

**ƏQRƏB** - İxtiyarınızda olan bu gündə pul məsələləri ilə bağlı hər hansı mübahisəyə getməyə dəyməz. Yaxşısı budur, səbrli olub uğurlu məqamınızı gözləyəsiniz. Problemlərdə vasitəcilərdən istifadə edin.

**OXATAN** - Maraqlı hadisələrlə rastlaşacağınız gözlənilir. Hətta könülaçan məclislərdə iştirak edə bilərsiniz. Yeni iş üslubuna keçmək barədə isə düşünməyin. Öz səhvlərinizə özünüz cavabdeh olmalısınız.

**OĞLAQ** - Göy qubbəsi yavaş-yavaş həyatın nəbzini tutduğunuzu proqnozlaşdırır. Məhz bu gündən etibarən daxili sarsıntılarınız da səngiyəcək. Odur ki, özünüzdə güc tapıb hərəkətə keçin.

**SUTÖKƏN** - Bu maraq dolu təqvimi daha çox dostlarınızla birlikdə keçirməyə çalışın. Başınıza gələn hər bir ideyanın böyük perspektivinə inanın. Gün ərzində maddi irəliləyişləriniz də gözlənilir.

**BALIQLAR** - Qarşınızda neytral bir gün durub. Bu səbəbdən qeyri-adi nəsə etməyə qalxmayın. Sənədləşdirmə məsələlərində diqqətli olun. Bu gün nəqliyyatla əlaqəli gərginlik olsa da, pul barədə uğurludur.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Oğlunu soyuqda saxlamaqla cəzalandırdı



Yaponiyada bir qadın oğluna qəribə şəkildə cəza verib. Fuming Cui Tan adlı ana dostları ilə mübahisə edən oğlunu dondurucu soyuqda bayıra çıxarıb və ondan paltarlarını soyunmasını istəyib. 8 yaşlı uşaq soyuq havada çılpaq halda dizləri üstünə çökərək anasından üzr istəyib. Uşağı göz yaşları içində görənlər onu sakitləşdirməyə çalışsalar da, anası buna icazə verməyib. Hadisəni görənlərin polisə xəbər verməsindən sonra uşaq soyuq havada üşüməkdən xilas edilib. Hadisə yerinə gələn polislər anaya xəbərdarlıq etsələr də, ona cəza verməyiblər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.300